


**Uzaqgörən siyasət, sabit və etibarlı tərəfdaş**

SƏHİFƏ 4-də



**Avropalı deputatlardan etiraflar**

SƏHİFƏ 6-da



**İçərişəhərdə yeni restoranlar açılmayacaq**

SƏHİFƏ 10-da



**Mərhəmət və bərabərlik bayramı**

SƏHİFƏ 11-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

23 MAY ŞƏNBƏ 2026 № 19 (4270) Qiyməti - 60 qəpik www.kaspi.az




# WUF13 DÜNYANIN DİQQƏTİNİ BAKIYA YÖNƏLTDİ

WUF13-ü yeni şəhər gündəliyinin icrasının formalaşdırılmasına mühüm töhfə kimi dəyərləndirmək olar. Forumda iştirak edən qonaqlar ölkəmizdə həyata keçirilən quruculuq və inkişafı yüksək qiymətləndiriblər.

WORLD URBAN FORUM
THIRTEENTH SESSION
BAKU, AZERBAIJAN | 17-22 MAY 2026

UN-HABITAT



## MÜHÜM MESAJLAR VƏ ÇAĞIRIŞLAR

Bakıda təşkil olunan WUF13 dünya liderlərinin beynəlxalq ictimaiyyətə ünvanladığı mühüm mesajlar və çağırışlar ilə yadda qaldı. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan qlobal toplantını təşkil edərək, şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə sadiqliyini bir daha nümayiş etdirir. Dövlət başçısının sözlərinə görə, indi Azərbaycan hökumətinin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır.




## AKTUAL MÜZAKİRƏLƏR ÜÇÜN PLATFORMA

Forum çərçivəsində Liderlərin Sammiti də maraqlı çıxışlarla diqqət çəkdi. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev vurğuladı ki, WUF13 aktual məsələlərin müzakirəsi üçün nüfuzlu platformadır. “Bugünkü konfransın Xəzərin incisi - gözəl Bakı şəhərində qüsursuz təşkilinə və bizə göstərilən isti qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi minnətdarlığımı bildirmək istərdim”, - o deyib.

Qırğızıstanın Prezidenti Sadır Japarov WUF13-ün ən yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi.



## QLOBAL DƏYİŞİKLİKLƏRƏ ASAN UYĞUNLAŞMA

Serbiya Prezidenti Aleksandar Vuçiç hər dəfə Azərbaycana səfər edərkən çoxlu dəyişikliklə rastlaşdığını bəyan etdi. Vurğuladı ki, dəyişikliklər Azərbaycanın bütün qlobal dəyişikliklərə nə qədər asanlıqla uyğunlaşdığını nümayiş etdirir: “İlham Əliyev insanların rifahı üçün çalışır və məhz buna görə Azərbaycan bu gün bütün dünyada ən yaxşı yerlərdən biridir”.

SƏHİFƏ 2,3,8,9-da

# TARİXİN ƏN BÖYÜK WUF-U BAŞA ÇATDI

Növbəti sessiyaya sədrlik Meksikaya təhvil verilib. Rekord sayda iştirakçını bir araya gətirən WUF13 təkcə miqyası ilə deyil, həm də innovativ formatları, inklüziv iştirakı və məzmunlu nəticələri ilə xatırlanacaq.



Fotolar: Tapdıq Abdullayev/ Global Photostock

Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) rəsmi bağlanış mərasimi keçirilib. Mayın 17-də başlamış WUF13 mayın 22-də başa çatıb.

Tədbirdə çıxış edən WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev WUF13-ün uğurlu təşkili prosesində sıx əməkdaşlığa və göstərilən fasiləsiz dəstəyə görə UN-Habitat komandasına xüsusi təşəkkür edib: "Bu güclü tərəfdaşlıq sayəsində WUF13 dialoqu və davamlı gələcəyə olan ortaq öhdəliyimizi əks etdirən bir platformaya çevrildi".

WUF13 Azərbaycan Əməliyyat Şirkətinin fədakar komandasına xüsusi təşəkkürünü bildirən milli koordinator deyib: "Sizin müstəsna fədakarlığınız və yorulmaz səyləriniz sayəsində missiyamızı nailiyyətə çevirdiniz və bu fövqəladə miqyaslı, rəngarəng və əhəmiyyətli sessiyanın qüsursuz şəkildə həyata keçirilməsini təmin etdiniz".

### İNKLÜZİV İŞTİRAK VƏ MƏZMUNLU NƏTİCƏLƏR

A.Quliyev Azərbaycan xalqına da təşəkkür edib: "Onların açıqürəkliliyi və qonaqpərvərliyi WUF13-ün uğuruna böyük töhfə verdi və tədbir boyunca dostluq, birlik və ortaq məqsəd mühitinin yaradılmasına kömək etdi". Onun sözlərinə görə, WUF13 gündəliyi mənzil məsələsini qlobal şəhər gündəliyinin mərkəzinə qoydu və bir daha təsdiqlədi ki, adekvat, əlçatan, təhlükəsiz və dayanıqlı mənzilə çıxış dövrümüzün ən mühüm çağırışlarından biri olaraq qalır. Sessiya çərçivəsində aparılan müzakirələrdə vurğulandı ki, mənzil təkcə əsas insan ehtiyacı deyil, həm də ləyaqət, dayanıqlıq, sosial inklüzivlik, iqtisadi imkanlar və davamlı şəhər inkişafının təməlidir.

Milli koordinator əmin olduğunu bildirib ki, WUF13 təkcə miqyası ilə deyil, həm də innovativ formatları, inklüziv iştirakı və məzmunlu nəticələri ilə xatırlanacaq.

## Azərbaycan WUF13 təcrübəsini bölüşməyə hazırdır

A.Quliyev bildirib ki, Azərbaycan WUF13 təcrübəsini WUF14-ə hazırlıq prosesində bölüşməyə hazırdır. Onun sözlərinə görə, WUF14-ə gedən yolda şəhərsalma gündəliyini irəli aparmaq və mənzil problemlərini işıqlandırmaq üçün əlimizdə daha bir mühüm platforma olacaq. Bu da Türkiyədə keçiriləcək olan COP31-dir. Onun sözlərinə görə, "Bakı standartları"nın tətbiqinə dair niyyət məktubunun imzalanması WUF13-ün mühüm irsi nəticələrindən biridir. Bu sənədin gələcəkdə Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcək ölkələr tərəfindən rəhbər tutulacağı barədə razılaşma olduqca təqdirəlayiqdir.




### WUF13-ÜN ƏN ƏLAMƏTDAR MƏQAMLARINDAN BİRİ

A.Quliyev qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə forum tarixində ilk dəfə keçirilən Liderlər Sammiti WUF13-ün ən əlamətdar məqamlarından birinə çevrilib. "Dövlət və hökumət başçılarının, yüksəksəviyyəli qonaqların və beynəlxalq təşkilatların rəhbərlərinin iştirakı qlobal şəhər gündəliyinin irəliləməsi və davamlı şəhər inkişafı sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, hər kəs üçün adekvat mənzil və dayanıqlı icmaların təmin edilməsinə dair ortaq öhdəliyə güclü siyasi iradəni aydın şəkildə nümayiş etdirdi",- deyə o əlavə edib.

## "Bakıda yenilənmə və dayanıqlılığın nümunəsini görürük"

Rəsmi bağlanış mərasimində çıxış edən BMT-nin Baş katibinin müavini Amina Muhammed WUF13-ə ev sahibliyində göstərdikləri qonaqpərvərliyə və liderliyə görə Azərbaycan hökumətinə, xalqına minnətdarlığını bildirib: "Azərbaycan 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan edərək, yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaları inkişaf etdirərək, həmçinin çoxəsrlik ənənələrə hörmətlə yanaşaraq, urbanizmi qlobal müstəviyə qaldırıb".

A.Muhammed qeyd edib ki, Azərbaycanın müxtəlif bölgələrində genişmiqyaslı yenidənqurma və inkişaf işləri həyata keçirilir, icmaların yenidən inteqrasiyası, infrastrukturun və sülh mühitinin bərpası istiqamətində mühüm addımlar atılır. Bu proses nəticəsində ərazilər tədricən mədəni canlılığın, sosial həmrəyliyin və iqtisadi inkişafın mərkəzinə çevrilir. "Dünyanın ən qədim və fasiləsiz məskunlaşılmış şəhərlərindən biri olan Bakıda biz, eyni zamanda, yenilənmə və dayanıqlılığın nümunəsini görürük", - deyə BMT rəsmisi vurğulayıb.



A.Muhammed vurğulayıb ki, Bakı müzakirələr üçün çox uyğun məkan oldu. "Bu sessiyanın uğur qazanmasında mühüm rol oynayan sarsılmaz fədakarlıqlarına və peşəkarlıqlarına görə Azərbaycan heyətinə, BMT-nin Məskunlaşma Proqramına (UN-Habitat) ən dərin təşəkkürümü bildirmək istəyirəm", - deyə A.Muhammed bildirib.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax qeyd edib ki, WUF13 rekord sayda iştirakçını bir araya gətirib və güclü, vahid bir mesaj verib: "Biz mənzil təminatının gələcəyi üçün həlledici bir məqamdayıq. Artıq hərəkət vaxtıdır. Dünya cüzi tərəqqidən sistemli transformasiyaya doğru addımlamalıdır".

O bildirib ki, Bakıda verilən mesaj aydındır. Növbəti onillik sürətləndirilmiş icra, genişmiqyaslı fəaliyyət və insanların həyatında ölçüləbilən müsbət təsirlərlə xarakterizə olunmalıdır. "Azərbaycan hökumətinə bizə göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm", - A.Rossbax söyləyib.

Ümumdünya Şəhərsalma Forumunun növbəti sessiyasına sədrlik Azərbaycandan Meksikaya təhvil verilib. Mayın 22-də WUF13-ün təşkil olunduğu Bakı Olimpiya Stadionunda BMT rəsmi bayrağının və Azərbaycanın Dövlət Bayrağının endirilməsi mərasimi də keçirilib. Bayraqların endirilməsi mərasimi forumun rəsmi olaraq yekunlaşdığını simvolizə edib.




# DÜNYA LİDERLƏRİNDƏN ŞƏHƏRSALMA MESAJLARI

Bakıda təşkil olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində keçirilən Liderlərin Sammiti də maraqlı çıxışlarla yadda qaldı.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bakıda təşkil olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) dünya liderlərinin beynəlxalq ictimaiyyətə ünvanladıqları mühüm mesajlar və çağırışlar ilə yadda qaldı. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan qlobal toplantını təşkil edərək, şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə sadiqliyini bir daha nümayiş etdirir.

Dövlət başçısının sözlərinə görə, indi Azərbaycan hökumətinin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır: "Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar".

Prezident qeyd edib ki, hazırda Böyük Qayıdış Proqramı həyata keçirilir, şəhər və kəndlərin Baş planları hazırlanır.

### XƏZƏRİN İNCİSİ - GÖZƏL BAKI

Forum çərçivəsində Liderlərin Sammiti də maraqlı çıxışlarla yadda qaldı.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev vurğulayıb ki, Ümumdünya Şəhərsalma Forumu qlobal inkişafın ən aktual məsələlərinin müzakirəsi üçün nüfuzlu platformadır. "Bugünkü konfransın Xəzərin incisi - gözəl Bakı şəhərində qüsursuz təşkilinə və bizə göstərilən isti qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi minnətdarlığımı bildirmək istərdim", - o deyib.




### VƏTƏNDAŞLAR ÜÇÜN LAYİQLİ HƏYAT ŞƏRAİTİ

Qırğızıstanın Prezidenti Sadır Japarov WUF13-ün ən yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq edib. O həmçinin vurğulayıb ki, WUF13 urbanizasiya, dayanıqlı inkişaf, iqlim dəyişikliyi və əlçatan mənzil məsələlərinin müzakirəsi üçün unikal platformadır: "Biz vətəndaşlarımız üçün layiqli həyat şəraitinin yaradılmasının məsuliyyətini daşıyırıq. Şəhərlər iqtisadi inkişaf, innovasiya, eləcə də insan kapitalı mərkəzlərinə çevrilib. Eyni zamanda, şəhərlər ilk olaraq iqlim dəyişikliyinin fəsadları, infrastrukturun həddindən artıq yüklənməsi, mənzil problemləri, eləcə də təhlükəsizlik məsələləri ilə üzləşirlər".

## TƏRƏQQİ, DÖZÜMLÜLÜK VƏ MÜASİRLİYİN PARLAQ NÜMUNƏSİ

Çin Sədri Si Cinpinin xüsusi nümayəndəsi Çjan Qotsin bəyan edib ki, ölkəsi insan mərkəzli yeni urbanizasiya modelini irəli sürür və beynəlxalq əməkdaşlığı genişləndirməyə hazırdır: "İnsanlar üçün şəhərlər" baxışını rəhbər tutan Çin hazırda mərkəzdə insanın yer aldığı yeni urbanizasiya modelini irəli sürür. Çinin şəhər əhalisinin sayı 2012-ci ildəki 720 milyondan 2025-ci ildə 950 milyona yüksəlib".

Pakistan İslam Respublikasının Pəncab əyalətinin Baş naziri Məryəm Nəvaz Şərif qeyd edib ki, Prezident İlham Əliyevin dayanıqlı şəhərsalma sahəsindəki yanaşması, Bakının və bütövlükdə Azərbaycanın transformasiyası ilə əlaqədar planları ölkəni həqiqətən müasir, mükəmməl formada bir-birinə bağlı infrastrukturlara malik məkana çevirməyə istiqamətlənib.

"Mən burada, Bakıda olarkən özümü yad bir diyara gəlmiş kimi hiss etmirəm. Fəxr edirəm ki, xarici missiya çərçivəsində ilk səfərim məhz bu ölkəyə olub. Mən buraya - tərəqqi, dözümlülük və müasirliyin parlaq nümunəsini sərgiləyən Bakıya gəldim", - M.N.Şərif bildirib. Onun sözlərinə görə, Bakı öz müasir urbanistik quruluşu ilə qlobal qarşılıqlı əlaqəni nümayiş etdirir: "Şəhərin zəngin tarixi irsi sivilizasiyalar arasındakı bağları, qədim ticarət marşrutlarını, eləcə də Azərbaycanla Pakistan arasında əsrlər boyu davam edən münasibətləri özündə əks etdirir. Azərbaycan hökumətinə, Prezident İlham Əliyevə isti və səmimi qonaqpərvərliyə, mükəmməl təşkilatçılığa görə dərin təşəkkürümü ifadə edirəm. Çox sağ olun".

## QLOBAL DƏYİŞİKLİKLƏRƏ ASAN UYĞUNLAŞMA

Serbiya Prezidenti Aleksandar Vuçiç hər dəfə Azərbaycana səfər edərkən çoxlu dəyişikliklə rastlaşdığını bəyan edib: "Bundan əlavə, biz görürük ki, dövlətiniz son illər ərzində nə qədər irəliləyiş əldə edir və bunun izahı kifayət qədər sadədir. Sizin işiniz və, əlbəttə, sədaqətiniz - bu, cənab Əliyevdə hamımızdan, ya da bəlkə də hamıdan daha çox olan bir şeydir. İlham Əliyev insanların rifahı üçün çalışır və məhz buna görə Azərbaycan bu gün bütün dünyada ən yaxşı yerlərdən biridir".

### İQLİM DAYANIQLIĞI VƏ MƏNZİL TƏHLÜKƏSİZLİYİ

Gürcüstanın Baş naziri İrakli Kobaxidze bəyan edib ki, Forum təcrübə mübadiləsinin aparılması, təhlükəsiz və inklüziv cəmiyyətlərin ümumi baxışının təşviq edilməsi üçün çox mühüm platformadır. "Bu gün şəhərlər iqlim dayanıqlığı və mənzil təhlükəsizliyindən davamlı inkişaf və sosial birliyə qədər demək olar ki, bütün əsas qlobal çağırışların mərkəzindədir.

### "İNSAN AMİLİNİ MƏRKƏZDƏ SAXLAMALIYIQ"

Esvatini Kralı Əlahəzrət III Msvati Azərbaycanda baş verən çox təsirli modernizasiyaya heyran qaldıqlarını bildirib: "Biz insan amilini mərkəzdə saxlamalı, ənənəvi elektrik enerjisi mənbələri arasında tarazlıq yaratmalıyıq ki, şəhərlərimiz inkişaf etsin. Biz təhlükəsiz yaşayış məskənləri salmalıyıq. Biz yalnız özümüzü deyil, həm də xələflərimizi düşünməliyik. Mən Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkür edirəm".

### ƏDALƏTLİ VƏ ÇEVİK MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Liviya Prezident Şurasının Sədri Məhəmməd Yunis Əl-Mənfi bildirib ki, şəhərsalma problemlərinin həlli inkişaf etməkdə olan ölkələr üçün ədalətli və çevik maliyyələşdirmə mexanizmləri tələb edir: "Biz balanslaşdırılmış şəhərsalma siyasətini dəstəkləmək, davamlı şəhərsalma planlaşdırılmasını təşviq etmək, infrastruktur və əsas xidmətləri təkmilləşdirmək istiqamətində çalışırıq".

Qonağın sözlərinə görə, Liviyada yenidənqurma səyləri son illər ərzində davam edərək ölkənin şimalında, cənubunda və şərqində, xüsusilə sel fəlakətindən sonra Dərnə şəhərində, qərbində isə müharibələrdən sonra böyük irəliləyişlərə şahidlik edib.

# UZAQGÖRƏN SİYASƏT, SABİT VƏ ETİBARLI TƏRƏFDAŞ

Hörmüz böhranı Azərbaycana təchizat zənciri baxımından ciddi təsir göstərmir. Əksinə, ölkəmizin etibarlı və dayanıqlı təchizatçı, tranzit dəhliz statusu möhkəmlənməkdədir.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

ABŞ-İsrail-İran müharibəsinin dünya üçün ən böyük mənfi təsiri məhz Hörmüz boğazı ətrafında yaranmış vəziyyət oldu. Dünyanın enerji tələbatının böyük hissəsini təmin edən boğazın fəaliyyətinin iflic duruma düşməsi neft və qazın qiymətinin sürətli bahalaşmasına səbəb oldu. Tələbatda yaşanan qıtlıq digər sahələr üzrə də iqtisadi geriləmə və bahalaşma dalğası yaratmaqdadır. Həm enerji istehsalçıları, həm də istehlakçı dövlətlər bu böhrana görə milyardlarla dollar zərər görməkdədirlər. Təəssüf doğuran məqam odur ki, böhranın nə zaman başa çatacağı da bilinmir.

## BU BÖHRAN ÖLKƏMİZƏ CİDDİ TƏSİR GÖSTƏRMİR

Yeri gəlmişkən, Hörmüz boğazı ətrafında yaranmış vəziyyətin Azərbaycana təsiri məsələsinə Prezident İlham Əliyev də münasibət bildirib. Dövlət başçısı "Euronews" televiziyasına müsahibəsində bildirib ki, təchizat zənciri baxımından bu böhran ölkəmizə ciddi təsir göstərmir. Çünki enerji təchizatı və marşrutların şaxələndirilməsi siyasəti bizim üçün bu günün məsələsi deyil. Bu siyasət uzun illərdir həyata keçirilir və tərəfdaşlarımız, eləcə də qonşu ölkələrlə birlikdə neft, qaz, elektrik enerjisi və nəqliyyat bağlılığı üzrə şaxələndirilmiş təchizat sistemi formalaşdırmağa nail olmuşuq: "Əlbəttə, Yaxın Şərqdə baş verən hadisələr müəyyən dərəcədə hər kəsə təsir edir. Bəziləri yüksək neft qiymətlərinin faydalı ola biləcəyini düşünə bilər. Bəli, elədir. Ancaq eyni zamanda, neft ehtiyatları ilə zəngin olan ölkələrin bir çoxu öz vəsaitlərini istiqrazlara yatırır, bir çoxu isə səhm bazarlarına investisiya edir. Belə qeyri-sabitlik baş verdiyi vaxt fond bazarları aşağı düşür. Nəticədə biz yüksək neft qiymətlərindən müəyyən gəlir əldə etsək də, bazarlarda investisiyalarımızda itki baş verir. Beləliklə, bu, hər kəsə təsir edir. Lakin öz enerji layihələrimiz baxımından biz təhlükəsiz mövqedəyik".




## AZƏRBAYCANIN TƏCRÜBƏSİ FAYDALI OLA BİLƏR

Dövlət başçısı qeyd edib ki, Azərbaycan daim diplomatiyanın tərəfdarıdır. Diplomatiya olmadan biz öz ehtiyatlarımızı bazarlara çıxara bilməzdik. Çünki bunun üçün digər ölkələrin ərazisindən keçmək, qonşularla və qonşuların qonşuları ilə yaxşı münasibətlər qurmaq, çoxtərəfli əməkdaşlıq formatı formalaşdırmaq, istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında qarşılıqlı uduşlu vəziyyət yaratmaq lazım idi ki, hər kəs qaydalara əməl etsin və qazansın: "Bu baxımdan düşünürəm ki, Azərbaycanın təcrübəsi faydalı ola bilər. Böhran həll olunduqdan sonra, - bu, tez və ya gec baş verəcək, - yəqin ki, yeni bir vəziyyət yaranacaq. Bir çox ölkələr enerji siyasətlərini və enerji ehtiyatlarının çatdırılması yollarını yenidən nəzərdən keçirəcəklər. Çox güman ki, Azərbaycanın coğrafiyası və mövcud resursları bu gün olduğundan daha çox tələb olunacaq".

## BU GÖSTƏRİCİYƏ GÖRƏ DÜNYADA BİRİNCİYİK

Rəsmi Bakının düşünülmüş və uzaqgörən siyasətinin nəticələri də bəllidir. Bu gün ölkəmiz Avropanın və digər ölkələrin enerji təhlükəsizliyinin təminində mühüm rol oynayır. Bu zamana qədər neftə olan tələbatını böyük ölçüdə Yaxın Şərq vasitəsi ilə təmin edən uzaq Yaponiya belə artıq Azərbaycandan neft tədarükünə başlayıb. Eyni mənzərə qaz ixracatı sahəsində də müşahidə olunur. Mövcud mənzərəni Prezident İlham Əliyev həmin müsahibəsində belə təsvir edib: "Biz Avropa ilə enerji sahəsində əməkdaşlığa müəyyən müddət əvvəl başlamışıq. Xüsusilə 2020-ci ildən sonra - Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi ilə bu proses daha da sürətlənib. Hazırda həmin dəhliz vasitəsilə 16 ölkəyə təbii qaz ixrac olunur. Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik. Bu rəqəm artmaqdadır. Avropa İttifaqının 10 üzv dövləti bizim müştərimizdir".



**"HAZIRDA İSTEHSAL SƏVİYYƏSİ ARTMAQDADIR"**

Prezident qeyd edib ki, ümumilikdə 12 Avropa ölkəsi Azərbaycandan qaz alır: "Ölkələrin sayı artır. Bizimlə əməkdaşlığa başlamaq istəyən ölkələrin müraciətlərinin sayı da artmaqdadır. Xoşbəxtlikdən biz boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığımızı vaxtında həyata keçirmişik. Hazırda istehsal səviyyəsi artmaqdadır. Tezliklə, yəqin ki, gələn ayın əvvəlində yeni yataqdan qaz hasilatına başlanılması ilə bağlı məlumat verəcəyik. Burada qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mövcuddur. Bizim premium bazara ehtiyacımız var, o da Avropadır. Avropanın isə Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var. Beləliklə, biz səylərimizi birləşdirdik və Avropa Komissiyası ilə çox səmərəli əməkdaşlıq qurduq".

## VƏZİYYƏT ƏVVƏLKİ KİMİ OLMAYACAQ

Göründüyü kimi, Hörmüz böhranının nə zaman həllini tapacağı sualı açıq olaraq qalır. Ekspertlərin gələcək üçün dəyərləndirmələri isə daha bədbindir. Çünki böhran aradan qaldırılsa da, onun nəticələrinin neytrallaşdırılması uzun zaman tələb edir. Çünki böhran dünyanın iqtisadi damarını təşkil edən əsas arteriyalar üzrə yeni yanaşmalar tələb edəcək. Bu vəziyyətdə Azərbaycan nümunəsi ön plana çıxır. Həm öncəki hazırlıq tədbirləri, həm də etibarlı və davamlı tranzit, təchizat baxımından rəsmi Bakının yürütdüyü diplomatik zəka ilə.

# ŞƏRQİN İLK DEMOKRATİK CÜMHURİYYƏTİ

İlk qərarı milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkənin bütün vətəndaşlarına bərabər hüquqlar vermək olan Azərbaycan Xalq Cümhuriyyəti çox mürəkkəb şəraitdə elan olundu. Cümhuriyyət dövründə təhsil problemlərinə də xüsusi diqqət yetirilirdi.




**ELMAN MİRZƏYEV**

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) az bir müddət yaşayıb. Ancaq o, XX əsrdə Azərbaycan xalqının həyatında tarixi bir mərhələ olub və xalqımızın gələcəyinin, müstəqilliyinin, azadlığının, suverenliyinin təməlini qoyub. Məhz buna görə də Azərbaycanın bütün vətəndaşları – biz, Azərbaycan Cümhuriyyətin yaranmasını, fəaliyyətini və onu yaradanları, o dövrdə qəhrəmanlıq nümunələri göstərən insanları böyük minnətdarlıq hissi ilə yad edirik.

### ONLAR XALQIMIZIN YADDAŞINA ƏBƏDİ HƏKK OLUNUB

İlk qərarı ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən AXC çox mürəkkəb geosiyasi şəraitdə elan olundu. Birinci Dünya müharibəsinin sona çatması, Rusiyada oktyabr inqilabı və çarizmin süqutu uğraması fonunda müstəqil dövləti qura biləcək qabaqcıl ziyalılar təbəqəsinin yetişməsi də AXC-nin yaranmasında müstəsna rol oynayıb. 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul olunmaqla AXC-nin əsası qoyuldu. Cümhuriyyətin dövlətçilik tariximizdəki rolunu hər zaman yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev 1918-ci ildə dövlət müstəqilliyimizin bərpasında böyük xidmətləri olmuş bu görkəmli şəxslərin adlarının Azərbaycan xalqının yaddaşına əbədi həkk olunduğunu bildirib.



## Şərqdə qadınlara ilk dəfə olaraq seçki hüququ verildi

İstiqlal Bəyannaməsinin qəbulu ilə müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika idarə üsulu, parlamentli dövlət yaradıldı. Dövlətçilik tariximizdə ilk konstitusiya aktı olan bu sənəd müstəqil Azərbaycanın yaradılması ilə yanaşı, onun prioritetlərini və məramını da elan etdi. Müstəqilliyimizin elan olunmasına kənardan mane olmaq istəyən qüvvələr çox idi, elə Azərbaycanın özünün siyasi-ictimai həyatında da vəziyyət rəvan deyildi. Bütün bu çətinliklərə baxmayaraq, AXC mövcud olduğu 23 ayda çox böyük işlər gördü. Mühüm qərarlar qəbul edildi, Milli Ordu yaradıldı. 1918-ci il iyunun 27-də Azərbaycan dili rəsmən dövlət dili elan edildi. Azərbaycan bütün Şərqdə qadınlarla seçki hüququ verən ilk dövlət oldu.

### TƏHSİLƏ VERİLƏN ÖNƏM

Cümhuriyyət dövründə təhsil problemlərinə də xüsusi diqqət yetirilirdi. 1918-ci ilin mayında müstəqillik elan edildikdən sonra dövrün görkəmli ictimai-siyasi xadimi Nəsib bəy Yusifbəyli xalq maarif naziri vəzifəsinə təyin edildi. Xalq Maarif Nazirliyi yaradıldığı gündən təhsilin bütün pillələrinin yenidən qurulması vəzifəsini və milli kadr hazırlığını ön plana çəkmişdi. Bu məqsədlə Gəncədə, Şəkidə, Zaqatalada qısamüddətli pedaqoji kurslar təşkil edilmiş və buraya 150 nəfər dinləyici qəbul olunmuşdu. 1918-ci il 22 sentyabr tarixli sərəncamla ibtidai sinif müəllimlərinin hazırlanmasına başlanıldı. 1919-cu ilin əvvəllərində Azərbaycanda artıq 23 dövlət orta təhsil müəssisəsi yaradılmışdı. Onlardan altısı kişi, dördü qadın gimnaziyası, beşi realni məktəbi, üçü müəllim seminariyası, birii politexnik və ticarət məktəbi idi. Müəllim kadrları hazırlamaq üçün yaradılmış kurslarda işləmək üçün Türkiyədən 50-yə yaxın müəllim dəvət olunmuşdu.

### BAKI DÖVLƏT UNİVERSİTETİNİN TƏSİS OLUNMASI

Cümhuriyyətin üzərinə götürdüyü mühüm vəzifələrdən biri də ölkədə ali təhsil müəssisəsinin yaradılması ilə bağlı idi. Parlament uzun və gərgin müzakirələrdən sonra 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qərar qəbul etdi. Noyabr ayının 15-i ilk dərs günü elan olundu. Görkəmli cərrah, professor V.Razumovski Bakı Dövlət Universitetinin rektoru seçildi. 1919-1920-ci illərdə hökumət xaricdə milli kadr hazırlığı üçün Qərbi Avropanın bir sıra ölkələrinə 103 nəfər azərbaycanlı gənc göndərmişdi. Bu gənclər Almaniyada, Fransada, İtaliyada, Türkiyədə və başqa dövlətlərdə təhsil aldıqdan sonra öz vətənlərinə qayıda bilmədilər. Çünki başqa yerlərdə olduğu kimi Azərbaycanda da bolşeviklər hakimiyyəti ələ almışdılar. İmkan tapıb vətənə qayıdan mütəxəssislər isə burada tüğyan edən siyasi irticanın qurbanı oldular. Türkçü, islamçı damğaları ilə həbs edilib Sibirə, Qazaxıstana sürgün edildilər. Onların az bir hissəsi 1956-cı ildə bəraət aldıqdan sonra Azərbaycana dönmüşdürlər.

### SAVADSIZLIĞIN LƏĞVİ SAHƏSİNDƏ XEYLİ İŞ GÖRÜLÜB

AXC dövründə savadsızlığın ləğvi sahəsində xeyli iş görülüb. Yaşlı əhali üçün axşam kursları açılmışdı. Bakı Dövlət Universiteti ilə yanaşı konservatoriyanın, pedaqoji institutun, ali təhsil verən polis məktəbinin, Gəncədə Kənd Təsərrüfatı İnstitutunun açılması nəzərdə tutulmuşdu. Bir sözlə, Azərbaycanda o zaman 23 orta ixtisas və 637 ibtidai məktəb yaradılmışdı. 1918-ci ilin oktyabrında Bakıda Hüseyn Ərəblinski adına Azərbaycan Dövlət Teatrı açılmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin sonuncu təhsil naziri o dövrün tanınmış şəxsiyyətlərindən olan Nurməmməd bəy Şahsuvarov olub. Bakı Dövlət Universitetinin təşkilində də N.Şahsuvarovun xüsusi xidmətləri vardı.

Fərəhli haldır ki, Ulu Öndərin tariximizə doğma, təəssübkeş münasibəti onun layiqli davamçısı, dövlət başçısı İlham Əliyevin də fəaliyyətində prioritet təşkil edir. Prezident İlham Əliyev xalqımızın tarixi keçmişinin öyrənilməsi kimi məsələləri daim diqqət mərkəzində saxlayır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir.

# AVROPALI DEPUTATLARDAN ETİRAFLAR



SERGEY LAQODİNSKİ

Deputatların bir hissəsi çıxışlarında açıq şəkildə bildiriblər ki, Aİ-nin və Avropa Parlamentinin özünün hərəkətləri Bakı ilə münasibətlərdəki böhranın səbəblərindən biri olub.

F.ABASOĞLU

Avropa Parlamentinin bir qrup deputatı təşkilatın Azərbaycanla əməkdaşlığı dayandırmasına səbəb olan hərəkətlərini tənqid edib. "Report"un Avropa bürosunun məlumatına görə, Strasburqda Avropa Parlamentinin plenar iclasının sonunda Azərbaycan parlamentinin Avropa Parlamenti ilə əməkdaşlığı dayandırmaq və "Euronest"dən çıxmaq barədə qərarı gündəliyə çıxarılıb.

### BAKI İLƏ MÜNASİBƏTLƏRDƏKİ BÖHRANIN SƏBƏBLƏRİ

Xüsusilə, Avropa Parlamentinin "Euronest"dəki nümayəndə heyətinin rəhbəri Sergey Laqodinski Bakını çıxma qərarını yenidən nəzərdən keçirməyə çağırıb. O qeyd edib ki, ölkə "Şərq tərəfdaşlığı" çərçivəsində regional dialoqun mühüm hissəsi olaraq qalır və onun Qara dəniz strategiyası, nəqliyyat əlaqəsi, energetika, rəqəmsal infrastruktur və regionda qarşılıqlı əməkdaşlıq layihələri üzrə müzakirələrdə iştirakı zəruridir.

Deputatların bir hissəsi çıxışlarında açıq şəkildə bildiriblər ki, Aİ-nin və Avropa Parlamentinin özünün hərəkətləri Bakı ilə münasibətlərdəki böhranın səbəblərindən biri olub.

### LAZIMSIZ, AĞILSIZ VƏ ƏKS-MƏHSULDAR

Ən kəskin çıxışlardan biri Avropa Mühafizəkarları və İslahatçılar qrupundan olan deputat Kristian Terheşin bəyanatı olub. O bəyan edib ki, Azərbaycan parlamentinin qərarı Brüssel üçün həyəcan siqnalı olmalıdır. K.Terheş birbaşa Avropa Parlamentini ittiham edib ki, qurum apreldəki Ermənistanla bağlı qətnaməni Bakıya təzyiq aləti kimi istifadə edib: "Bu parlament (Avropa Parlamenti - red.) Ermənistanın demokratik inkişafı hissəsində hamımızın dəstəklədiyi 2026-cı il aprel qətnaməsini Azərbaycana hücum etmək üçün istifadə etdi, bu tamamilə lazımsız, ağılsız və əks-məhsuldar idi".

K.Terheş xüsusi diqqəti ona yönəldib ki, hazırda Ermənistan və Azərbaycan sülh sazişinin bağlanmasına yaxınlaşmağa çalışır: "Onilliklər boyu müharibələrdən sonra onlar nəhayət birlikdə işləyir və barışıq və sülh müqaviləsinin imzalanması üçün real səylər göstərirlər".

Onun fikrincə, bu fonda Avropa Parlamentinin hərəkətləri siyasi cəhətdən uzaqgörən görünmürdü.



## "Bu, geosiyasi cəhətdən özünüməhvetmədir"

K.Terheşin qiymətləndirməsinə görə, Aİ məhz Cənubi Qafqaz və Mərkəzi Asiyanın strateji əhəmiyyət kəsb etdiyi bir vaxtda mövqelərini itirmək riski ilə üzləşir: "Azərbaycan sadəcə Aİ-nin başqa bir tərəfdaşı deyil. O, Avropanın enerji təhlükəsizliyi və nəqliyyat əlaqəsi üçün əsas əhəmiyyətə malikdir".

K.Terheş vurğulayıb ki, Azərbaycan Avropaya Rusiya qazından asılılığı azaltmağa kömək edib, yanacaq tədarük edir və Ukraynaya humanitar yardım göstərir: "Azərbaycan kimi ölkələrin uzaqlaşdırılması sadəcə məsuliyyətsizlik deyil, bu, geosiyasi cəhətdən özünüməhvetmədir".

### "ÖLKƏLƏRƏ ÖZ İŞLƏRİ İLƏ MƏŞĞUL OLMAĞA İMKAN VERİN"

"Patriots for Europe" qrupunun deputatı Anjelin Füre Bakı ilə münasibətlərdəki böhranı regionda Avropa strategiyasının iflası kimi təqdim edib: "Azərbaycanın "Euronest"dən çıxmaq qərarını sadəcə prosedur addımı hesab etmək olmaz. Bu, Avropanın strateji cəzasıdır".



Kristian Terheş

A.Füre böhranı birbaşa Aİ-nin hərəkətləri ilə əlaqələndirib: "Biz sizin müdaxiləniz və Ermənistana münasibətdə yanaşmamızın bədəlini ödəyirik".

Onun sözlərinə görə, Avropa eyni vaxtda Bakı ilə enerji əməkdaşlığını saxlamağa və siyasi təzyiqi gücləndirməyə çalışırdı: "Siz düşünürdünüz ki, qaz tədarükünü təmin edəcəksiniz, amma eyni zamanda bütün bu qətnamələri qəbul edirdiniz".

A.Füre əlavə edib ki, Avropa nə humanitar məqsədlərə nail olub, nə də Azərbaycanla münasibətləri yaxşılaşdırıb. O, Avropa strukturlarını dövlətlərin yerini tutmağa cəhddə də ittiham edib: "Siz dərs keçmək üçün dövlətlərin rolunu öz üzərinizə götürdünüz".

Deputatın son çağırışı Avropa institutlarına ünvanlanıb: "Dünyaya dərs verməyi və mühazirə oxumağı dayandırın. Ölkələrə öz işləri ilə məşğul olmağa imkan verin və yetkin real siyasətə keçin".



Tyerri Mariani

## "Bu, Avropanın enerji təhlükəsizliyinə son zərbə ola bilər"

Deputat Tyerri Mariani isə öz növbəsində bəyan edib ki, hazırda Cənubi Qafqaz unikal nöqtədədir, onilliklər boyu münaqişədən sonra Bakı və İrəvan sülhə yaxınlaşıb. T.Marianinin fikrincə, Avropa Parlamenti əks istiqamətdə hərəkət edir, odun üstünə yağ tökən qətnamələr qəbul edir. Azərbaycan Avropa Parlamenti ilə konstruktiv münasibətlər qurmaq istəyirdi, lakin qanuni narahatlıqları səbəbindən qapını bağlayıb.

Avroparlamentari Tomas Frölih Azərbaycan ətrafındakı böhranı Aİ-nin xarici siyasətinin daha geniş problemi ilə əlaqələndirib. O xəbərdarlıq edib ki, Bakı ilə davam edən münaqişə Avropanın energetikasına zərbə vura bilər: "Əgər biz Azərbaycanla bu cür ünsiyyət qurmağa davam etsək, bu, Avropanın enerji təhlükəsizliyinə son zərbə ola bilər".

### BEŞ İL ƏRZİNDƏ 14 QƏTNAMƏ

Qeyd edək ki, rəsmi Bakı dəfələrlə Avropa Parlamentini müxtəlif lobbi qurumlarının maraqlarına xidmət edən təsisat olaraq dəyərləndirib. Onu daim Azərbaycana qarşı həqiqətdən uzaq, ikili standartlara əsaslanan mövqe sərgiləməkdə ittiham edib. Son olaraq Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısındakı çıxışı zamanı bildirib ki, Avropa Parlamenti sülh prosesinə dəstək vermək əvəzinə ona qarşı sabotajla məşğul olur: "İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır".

Xatırladaq ki, Milli Məclis mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib.

Rəsmi Bakının mövqeyi artıq avropalı deputatları da reallığı etiraf etməyə məcbur edir. Çünki həqiqət heç də kağız parçasından fərqlənməyən qətnamələrdəki kimi yox, məhz Azərbaycan tərəfinin ortaya qoyduğu ədalətli mövqedədir.

# QIZIL ORDA - ŞƏRQLƏ QƏRBİN KÖRPÜSÜ

Astanada Qızıl Ordanın irsinə həsr olunan beynəlxalq simpozium keçirilib. Tədbirə dünyanın 20 ölkəsindən 350-dən çox tarixçi-alim və tədqiqatçı qatılıb.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Tarixi varisliyin qorunması məsələsi son dərəcə aktualdır. Aydındır ki, bunsuz heç bir tərəqqi mümkün deyil. Əgər biz keçmişə hörmətlə yanaşmasaq, işıqlı gələcəyə doğru irəliləyiş də çətin olacaq. Məhz buna görə biz mütərəqqi bir millət kimi yalnız irəliyə doğru gedəcəyik".

Qazaxıstanın paytaxtı Astanada keçirilən "Qızıl Orda çöl sivilizasiyasının modeli kimi: tarix, arxeologiya, mədəniyyət, identiklik" adlı beynəlxalq simpoziumda səslənən bu fikirlər diqqəti ölkənin qədim tarixinə, yeni tədqiqatlara olan ehtiyaca yönəldib.

Dünyanın 20 ölkəsindən 350-dən çox tarixçi-alim və tədqiqatçının iştirak etdiyi simpoziumun əsas məqsədi dünya elmi ictimaiyyəti ilə əlaqələri gücləndirmək və bu mövzunu sistemli, hərtərəfli şəkildə araşdırmaqdır.

### QIZIL ORDA İRSİNİN QORUNMASI

Plenar iclasın moderatoru Qazaxıstanın elm və ali təhsil naziri Sayasat Nurbek qeyd edib ki, bu simpozium tarixi irsin yenidən qiymətləndirilməsi və elmi tədqiqatların inkişafı baxımından strateji əhəmiyyət daşıyır.

Tədbirdə UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru Lazare Eloundou Assamo təşkilatın Qızıl Orda irsinin qorunması, tədqiqi və beynəlxalq səviyyədə təşviqini dəstəkləməyə davam edəcəyini bildirib: "Qızıl Orda irsinin öyrənilməsi yalnız regional deyil, qlobal əhəmiyyət daşıyır və bu, sivilizasiyalararası dialoqun gücləndirilməsinə xidmət edir".

### ORTAQ MARAQLARA CAVAB VERƏN ƏMƏKDAŞLIQ

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirib ki, bu gün heç bir tarixçi Qızıl Ordanın - Böyük Çöldə hökmranlıq etmiş və Avrasiyanın sonsuz ərazilərini əhatə etmiş imperiyanın qüdrətini şübhə altına almır: "Bu, tarixi faktdır. Qərblə Şərqi birləşdirən, müxtəlif sivilizasiyaların inkişafına və dövlətlərin formalaşmasına ciddi təsir göstərən bu imperiya öz dövrünün ən böyük siyasi qurumu idi. Məhz buna görə Qızıl Ordanın tarixi çoxsaylı dərin elmi araşdırmaların mövzusudur. Mövzu bu gün də aktuallığını qoruyur və fikrimcə, heç vaxt əhəmiyyətini itirməyəcək. Bu, ölkəmizin və bütövlükdə bəşəriyyətin tarixində ən mühüm səhifələrdən biridir".

Prezident bildirib ki, UNESCO-nun dəstəyi ilə Qazaxıstan bir çox mühüm təşəbbüs həyata keçirib: "Bu əməkdaşlığın bariz nəticəsi olaraq Xoca Əhməd Yasəvi məqbərəsi, Tamqalı petroqlifləri və bir sıra qədim şəhər yerləri UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilib. Qazaxıstanın qeyri-maddi mədəni irsinin qorunması və təbliği istiqamətində də genişmiqyaslı işlər görülüb".




## "ALİMLƏRİN SƏYLƏRİNİ BİRLƏŞDİRMƏK LAZIMDIR"

Qazaxıstan rəhbəri qeyd edib ki, hazırkı son dərəcə mürəkkəb və gərgin geosiyasi şəraitdə bəşəriyyət tarixində sülhyaradıcı quruluşların formalaşdırılması və dialoq platformalarının yaradılması ilə bağlı inandırıcı, ruhlandırıcı nümunələri tapmağı bacarmaq vacibdir: "Bununla yanaşı, yalnız müharibələrin qaranlıq xronologiyası ilə məhdudlaşmamaq lazımdır. Başa düşürəm ki, bu, asan məsələ deyil. Çünki dünya salnaməsi qədim dövrlərdən bu günə qədər əsasən müharibələrin və silahlı münaqişələrin ətraflı təsviri ilə zəngindir. Bunun səbəbi tam aydındır: sonsuz qarşıdurma potensialına malik müharibələr sülh şəraitində gedən monoton quruculuq proseslərindən daha asan təsvir olunurdu. Yeri gəlmişkən, Lev Tolstoyun məşhur "Hərb və sülh" romanı da sülhdən daha çox müharibənin fenomenal və fundamental təsviridir". Dövlət başçısı qeyd edib ki, məhz indi, dünya birliyi tarixi "yol ayrıcı"na gəlib çatdığı bir vaxtda nüfuzlu və peşəkar alimlərin səylərini birləşdirmək lazımdır:

"Tarixi yalnız güclülər yaradır və onu qaliblər yazır" prinsipi, etiraf etmək lazımdır ki, anti-elmi xarakter daşıyır".




## SİMPOZİUMDA "ASTANA BƏYANNAMƏSİ" QƏBUL EDİLİB

Prezident ölkəsinin son illərdə genişmiqyaslı siyasi və iqtisadi islahatlar həyata keçirdiyinə də diqqət yönəldib: "Şübhəsiz ki, bu, ölkəmiz üçün son dərəcə mühüm və məsuliyyətli addımdır. Bununla əlaqədar olaraq, tarixi varisliyin qorunması son dərəcə aktualdır. Aydındır ki, bunsuz heç bir tərəqqi mümkün deyil. Əgər biz keçmişə hörmətlə yanaşmasaq, işıqlı gələcəyə doğru irəliləyiş də çətin olacaq. Məhz buna görə biz mütərəqqi bir millət kimi yalnız irəliyə doğru gedəcəyik. Qızıl Ordanın irsi sonsuzdur. Biz bu nəhəng mənəvi və tarixi sərvəti XXI əsrin tələblərinə uyğunlaşdırmaq və modernləşdirmək üçün sistemli səylər göstəririk. Lakin Qızıl Ordanın tarixi fenomeninin hərtərəfli öyrənilməsi və tanıdılması sahəsində həqiqi sıçrayış əldə etmək üçün prinsipial olaraq yeni, qlobal səviyyəyə çıxmaq lazımdır".

### TÜRK DÖVLƏTLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ

Prezident türk dövlətləri arasında əməkdaşlığı da fəal şəkildə inkişaf etdirdiklərini bildirib: "Qazaxıstan bütövlükdə Avrasiya məkanında kompleks qarşılıqlı fəaliyyət ideyasını irəli sürərək region ölkələrinin iqtisadi və texnoloji potensialının gücləndirilməsinə töhfə verir".

Simpoziumda çıxış edən Qazaxıstan, Türkiyə, Rusiya və Azərbaycan alimləri Qızıl Ordanın Avrasiya tarixində mühüm rol oynadığını vurğulayıblar. Onlar dövlətin inkişaf etmiş idarəçilik sistemi, Şərqlə Qərb arasında körpü rolunu və zəngin multikultural irsini xüsusi qeyd ediblər.

Simpozium çərçivəsində "Astana Bəyannaməsi" qəbul edilib. Bu sənəd beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi və müxtəlif ölkələrin tədqiqat mərkəzləri arasında əlaqələrin möhkəmləndirilməsinə xidmət edir.

TƏFSİLAT Kaspi 23 MAY ŞƏNBƏ 2026 9

## ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMUNUN 13-CÜ SESSİYASINDA İŞTİRAK EDƏN QONAQLARIN BAKI TƏƏSSÜRATLARI

# WUF13 DÜNYANIN DİQQƏTİNİ BAKIYA YÖNƏLTDİ

**Bakıda təşkil olunan WUF13-ü yeni şəhər gündəliyinin icrasının formalaşdırılmasına mühüm töhfə kimi dəyərləndirmək olar. Forumda iştirak edən qonaqlar ölkəmizdə həyata keçirilən quruculuq və inkişafı yüksək qiymətləndiriblər.**

ƏRTURAN İSMAYIL

Dünyanın ürəyi yenidən Odlar Diyarında döyündü. Azərbaycan daha bir qlobal tədbirə - Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) ev sahibliyi etdi. 17-22 may tarixlərini əhatə edən altı gün ərzində dünyanın 180-ə yaxın ölkəsindən 40 mindən çox nümayəndə paytaxt Bakıda toplaşdı. Onlar "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunmuş müzakirələrdə qlobal mənzil çağırışlarını ön plana çəkərək mənzil təminatını inklüzivlik və davamlılığın əsas amili kimi qiymətləndirdilər. Ümumilikdə WUF13-ü yeni şəhər gündəliyinin icrasının formalaşdırılmasına mühüm töhfə kimi dəyərləndirmək olar.

Qeyd edək ki, BMT-nin ən nüfuzlu tədbirlərindən birinin paytaxt Bakıda keçirilməsi Azərbaycan hökumətinin şəhərsalma sahəsində apardığı dərin islahatlar, ölkədə uğurla həyata keçirilən genişmiqyaslı layihələr və əldə edilən nailiyyətlərin göstəricisidir. Azərbaycanın WUF13-ə ev sahibliyi etməsi eyni zamanda ölkəmizin bu sahədə qlobal gündəliyə verdiyi töhfələr sayəsində beynəlxalq nüfuzunun ən yüksək səviyyədə olmasının daha bir bariz nümunəsidir. Azərbaycanın uğurlarını, WUF13-ün yüksək səviyyədə təşkilini qlobal tədbir çərçivəsində ölkəmizdə səfərdə olan qonaqlar, o cümlədən rəsmi şəxslər, diplomatlar, jurnalistlər də mediaya açıqlamalarında xüsusi vurğulayıblar.






### "BU, CƏNUBİ QAFQAZ REGİONUNDA KEÇİRİLƏN İLK SESSİYADIR"

Çinin Azərbaycandakı səfiri Lu Mey bildirib ki, Bakıda keçirilən WUF13 "tarixdə bir neçə rekorda" imza atıb və BMT-nin Məskunlaşma Proqramı tərəfindən indiyədək təşkil olunan ən böyük tədbirə çevrilib. Onun sözlərinə görə, "Urban Expo" sərgisi də WUF tarixində ən böyük sərgi olub və burada mənzil tikintisi, şəhər idarəçiliyi və dayanıqlı inkişaf sahələrində innovativ həllər təqdim edilib: "Bu, Cənubi Qafqaz regionunda keçirilən ilk sessiyadır. Azərbaycanın təşəbbüsü ilə Ümumdünya Şəhərsalma Forumu çərçivəsində ilk dəfə olaraq 20-yə yaxın ölkənin nümayəndələrinin iştirakı ilə Liderlər Sammiti təşkil olunub. Bütün bu nailiyyətlər Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycanın artan hərtərəfli gücünü və beynəlxalq nüfuzunu tam şəkildə nümayiş etdirir".

### "WUF13 ÜÇÜN YENİDƏN BURADAYAM"

Pakistanlı tədqiqatçı Şer Şah Xan WUF13-ün Bakıda çox yüksək səviyyədə təşkil olunduğunu söyləyib. Onun sözlərinə görə, tədbirin hər bir hissəsi düşünülüb və bura fikir mübadiləsi, yeni ideyalar qazanmaq baxımından əvəzsiz platformaya çevrilib: "COP29 zamanı Bakıda olmuşdum və WUF13 üçün yenidən buradayam. Burada COP29-da tanış olduğum bir çox insanla yenidən görüşdüm. Bu da göstərir ki, belə platformalar real fəaliyyət və əməkdaşlıq üçün imkan yaradır".

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi bərpa və yenidənqurma işlərinə də münasibət bildirən Şer Şah Xan bu prosesi yüksək qiymətləndirib: "Müharibədən sonra Şuşaya səfər etdim. Gördüklərim məndə xoş təəssürat yaratdı. Pakistanlı olaraq azərbaycanlı bacı və qardaşlarımla qürur duyuram. Torpaqların geri qaytarılması və ardınca onların sürətlə inkişaf etdirilməsi diqqətçəkəndir. Münaqişədən sonra iki-üç il ərzində aparılan yenidənqurma və mənzil layihələri böyük işdir. Bu proses yalnız dövlətin deyil, Azərbaycan cəmiyyətinin və özəl sektorun birgə səyləri nəticəsində həyata keçirilir. Bütün bunlar uzun illər ərzində formalaşmış boşluqların qısa müddətdə aradan qaldırılmasına yönəlib".



### "WUF13 DAYANIQLI ŞƏHƏR İNKİŞAFI ÜÇÜN FÜRSƏT YARADIR"

Tanınmış amerikalı urbanist, strateji şəhərsalma mütəxəssisi və memarlıq nəzəriyyəçisi Maykl Mahaffi bildirib ki, WUF13 dayanıqlı şəhər inkişafı və şəhərsalmaya müasir yanaşmaların tətbiqi üçün mühüm fürsət yaradır. "Sustasis Foundation" fondunun (ABŞ) icraçı direktoru olan və çoxsaylı qlobal tədqiqat mərkəzləri ilə əməkdaşlıq edən M.Mahaffi qeyd edib ki, Bakı və Azərbaycan paytaxtında baş verən genişmiqyaslı transformasiyalar onda dərin təəssürat yaradıb: "Müasir inkişaf layihələri həyata keçirilərkən, şəhərin tarixi irsinin və milli kimliyinin qorunması xüsusi əhəmiyyət kəsb edir. Bakı rahat şəhər mühitinin vacib komponentləri olan piyada və əhalinin miqyasına hesablanmış yeni şəhər məkanlarını uğurla tətbiq edir".

### "AZƏRBAYCAN QLOBAL ŞƏHƏRSALMA GÜNDƏLİYİNDƏ AKTİV ROL OYNAYIR"

WUF13-də iştirak edən Hindistan nümayəndəsi Şefali Batra Sarin də qlobal Forumun Bakıda yüksək səviyyədə təşkil edildiyini diqqətə çatdırıb. O bildirib ki, çoxlu sayda nümayəndələrin WUF13-də iştirakı tədbirin əhəmiyyətini və Azərbaycanın qlobal şəhərsalma gündəliyində oynadığı aktiv rolu nümayiş etdirir: "Bu mötəbər tədbir müxtəlif ölkələrin şəhərsalma, davamlı və dayanıqlı şəhərlərin formalaşması kimi aktual mövzular ətrafında müzakirələr aparması baxımından çox faydalı platformadır".

Kolumbiyanın mənzil tikintisi, şəhərlər və ərazilər nazirinin müavini Ayde Marsilya Bello Bakı şəhərini çox bəyəndiyini dilə gətirib. Nazir müavini qeyd edib ki, Azərbaycanın paytaxtı ona müxtəlif mədəniyyətlərin bir-birinə qovuşduğu gözəl bir şəhər kimi görünüb: "Çox maraqlı tarixiniz var. Azərbaycanın nisbətən gənc bir dövlət olmasına baxmayaraq, ölkə zəngin tarixi irsə malikdir. Memarlıq, şəhər mühiti, görməli yerlər - bütün bunlar çox maraqlıdır. Həmçinin xoşuma gəldi ki, ölkə dünyaya açıqdır və tanınmağa çalışır. Kolumbiya üçün Azərbaycan çox uzaq bir ölkə kimi görünür, lakin bu səfərdən sonra buraya ailəmlə birlikdə qayıtmaq istəyi yarandı".

### "GÖRDÜKLƏRİM MƏNDƏ ÇOX XOŞ TƏƏSSÜRAT YARATDI"

Ekvadorun Kito şəhərinin sabiq meri Maurisio Rodas Bakının inkişaf səviyyəsinin və şəhər infrastrukturunun keyfiyyətinin heyranedici olduğunu söyləyib. O, ölkəmizin inkişaf etmiş şəhər infrastrukturuna, səmimi qonaqpərvərliyinə diqqət çəkib: "İnkişaf etmiş şəhər infrastrukturuna və həqiqətən səmimi qonaqpərvərliyə malik bu heyrətamiz ölkədə olmaqdan çox məmnunam. Azərbaycanın paytaxtında abadlıq və şəhər mühitinin rahatlıq səviyyəsi yüksəkdir. Gördüklərim məndə çox xoş təəssürat yaratdı: bu, gözəl, yaxşı təşkil olunmuş, ən yüksək səviyyəli infrastruktura malik səliqəli və təmiz bir şəhərdir. Xüsusilə yerli sakinlərin səmimiliyini və qonaqpərvərliyini qeyd etmək istəyirəm. Burada olmaqdan həqiqətən məmnunam".



### "AZƏRBAYCAN HƏMİŞƏ BÖYÜK TƏDBİRLƏRİ ƏLA TƏŞKİL EDİR"

Meksikanın ölkəmizdəki səfiri Mariya Viktoriya Romero Kabalyero Azərbaycanın həmişə qlobal tədbirləri əla təşkil etdiyini söyləyib. Diplomat vurğulayıb ki, Meksika və Azərbaycan şəhər xidmətləri və sosial proqramlar sahəsində təcrübə mübadiləsi apara bilər: "Meksika nümayəndə heyətinin Azərbaycanda WUF13 çərçivəsində tədbirlərdə iştirakı Mexikoda keçiriləcək növbəti Ümumdünya Şəhərsalma Forumuna hazırlıq fonunda xüsusi əhəmiyyət daşıyır. Azərbaycan həmişə iri tədbirləri əla təşkil edir və WUF13 də istisna deyil. Şəhər siyasətinə əsas yanaşmalarla bağlı isə deyə bilərəm ki, söhbət inklüziv proqramların ayrılmaz hissəsi kimi mənzil təminatından gedir. Bu, həm də sosial cəmiyyətə qayğıya, yaşlılara, uşaqlara və qadınlara diqqətə aiddir. Bu, bizim üçün də çox vacibdir. Biz Bakının təcrübəsini götürəcəyik və onu daha da inkişaf etdirəcəyik. Mexikoda qadınların, uşaqların və yaşlıların müxtəlif proqramlara və xidmətlərə çıxış əldə etdiyi "Utopias" mərkəzləri mövcuddur. Bu təcrübə yeni şəhər layihələri üçün faydalı ola bilər. Azərbaycanın ASAN və DOST kimi strukturları var və onların mümkün qarşılıqlı fəaliyyəti təcrübə mübadiləsinin çox maraqlı nümunəsinə çevrilə bilər".

### "WUF13-ÜN TƏŞKİLİ ƏN YÜKSƏK QİYMƏTƏ LAYİQDİR"

"Urban Solutions Journal"ın əməkdaşı Laura Puttkamer söyləyib ki, Bakıda WUF13-ün təşkili ən yüksək qiymətə layiqdir. Onun sözlərinə görə, yerli könüllülərin qüsursuz işi də tədbirin ən güclü tərəflərindən biri olub. Jurnalist qeyd edib ki, karyerası ərzində artıq dörd WUF forumunda işləyib, lakin Bakı sammiti öz atmosferi ilə müsbət mənada fərqlənib: "Belə yüksək keyfiyyətli hazırlığa görə Bakının zəhmətini layiqincə qiymətləndirmək lazımdır. Könüllülərin rolunu xüsusi vurğulamaq istəyirəm - onlar sadəcə möhtəşəmdirlər. Onların mehribanlığı və kömək etməyə səmimi şəkildə hazır olmaları hər bir nümayəndə üçün rahat mühit yaradır. Forumun rahat nəqliyyat əlçatanlığını və şəhərin həyat ritmini daha yaxşı hiss etmək imkanını da vurğulamaq istərdim. Əgər Qahirədəki əvvəlki forumda konfrans mərkəzi təcrid olunmuş və yaşayış məhəllələrindən uzaqda yerləşirdisə, Azərbaycan paytaxtında iştirakçılar metropolitendən asanlıqla istifadə edə və şəhər mühiti ilə aktiv şəkildə təmasda ola bilərlər. Eyni zamanda urbanizm və təbiətin vəhdəti, xüsusən də Xəzər dənizinə yaxınlığı sayəsində Bakı məndə güclü təəssürat yaradıb".

### TƏŞKİLATÇILIQ MİQYASINA GÖRƏ ƏN BÖYÜK URBANİSTİK FORUM



UN-Habitat-ın Azərbaycandakı proqramının rəhbəri Anna Suve Bakıda keçirilən WUF13-ün iştirak və təşkilatçılıq miqyasına görə ən böyük urbanistik forumlardan birinə çevrildiyini dilə gətirib. Onun sözlərinə görə, Bakıda həm WUF formatı ilə ilk dəfə tanış olan iştirakçılar, həm də əvvəlki sessiyalarda iştirak etmiş ekspertlər bir araya gəlib: "Bu gün burada olduğum üçün çox qürur duyuram. Çoxdandır tanıdığım insanların simalarını, eləcə də Foruma ilk dəfə gələn yeni iştirakçıları görürəm. Forum iştirakçılara pavilyonlar, tərəfdaşlıq zonaları və tematik sessiyalar arasında sərbəst hərəkət etməyə imkan verən açıq formatı ilə fərqlənir. Belə bir struktur "şəhər daxilində şəhər" atmosferi yaradır. Forumun ekspozisiya hissəsi də fantastikdir. Bir çoxları mənə bunun hətta COP29-dan da yaxşı olduğunu deyir".

### "FORUMUN AZƏRBAYCAN TƏRƏFİNDƏN QƏBULU TƏQDİRƏLAYİQ HALDIR"



Gürcüstan Texniki Universitetinin professoru, urbanist və ekspert Merab Bolkvadze şəhərlərin gələcəyinin Bakıda müzakirə olunduğunu vurğulayıb. Professor BMT-nin WUF13 sessiyasının işini yüksək qiymətləndirib: "Qardaş ölkəmiz Azərbaycanda - Bakıda çox böyük bir Forum keçirilib. Forum ümumilikdə məskunlaşma məsələlərinə həsr olunub və WUF13 dünyada yaşayış məntəqələri ilə bağlı problemləri əhatə edib. Belə bir mötəbər Forumun Azərbaycan tərəfindən qəbul edilməsi təqdirəlayiq haldır. Tədbirdə gürcü mütəxəssislər və şəhərsalma üzrə ekspertlər də iştirak ediblər. Forum çərçivəsində aparılan müzakirələr şəhərsalma və dayanıqlı inkişaf baxımından xüsusi əhəmiyyət daşıyır. Şəhərlərin və yaşayış məntəqələrinin dayanıqlı inkişafı baxımından şəhərsalma mövzusunda keçirilən belə forumlar və görüşlər olduqca önəmlidir. Ümumilikdə, Gürcüstan tərəfi, gürcü memarlar və şəhərsalma mütəxəssisləri bu cür forum və görüşləri yüksək qiymətləndirir və dəstəkləyirlər".

Açıqlamalardan da göründüyü kimi Azərbaycana gələn, paytaxt ilə yaxından tanış olan qonaqlar ölkəmizdə həyata keçirilən quruculuq və inkişafı yüksək qiymətləndirirlər. Onlar Bakı şəhərində qlobal tədbirlərin, o cümlədən BMT Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının yüksək təşkilatçılıq səviyyəsində baş tutduğunu xüsusi qeyd edirlər. Şübhəsiz ki, bütün bunlar Azərbaycanın reallıqlarını bir daha dünyaya çatdırır, ölkəmizin beynəlxalq nüfuzunun artmasına xidmət edir.

# İÇƏRİŞƏHƏRDƏ YENİ RESTORANLAR AÇILMAYACAQ

İçərişəhərin cənub hissəsi əsasən turistlər üçün nəzərdə tutulub. Restoranlar və muzeylərin əksəriyyəti həmin zonada yerləşir. Yaşayış zonası əsasən Şirvanşahlar Sarayı ətrafını əhatə edir.




İçərişəhərdə yeni restoranların açılmasına dəstək verilmir. "Report" xəbər verir ki, bunu "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Rüfət Mahmud Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində keçirilən "Şəhərlərdə rəqəmsal transformasiya" adlı tədbirdə deyib.

### "ƏSAS DİQQƏT KEYFİYYƏTİN ARTIRILMASINA YÖNƏLİB"

R.Mahmudun sözlərinə görə, hazırda əsas diqqət mövcud restoranların xidmət keyfiyyətinin artırılmasına yönəlib: "Biz düşünürük ki, artıq böyük restoranların sayı kifayətdir. Ona görə yeni obyektlərin açılmasını dəstəkləmirik. Bəzi restoranların yalnız turist yönümlü fəaliyyət göstərməsi onların dayanıqlı işləməsinə mane olur. Qoruq İdarəsi restoran və hotellərdə mütəmadi görüşlər keçirərək onların problemlərinin həllinə dəstək göstərməyə çalışır".

### "İÇƏRİŞƏHƏR TURİST VƏ YAŞAYIŞ ZONALARINA BÖLÜNÜB"

R.Mahmud əlavə edib ki, İçərişəhər turist və yaşayış zonalarına bölünüb: "İçərişəhərin cənub hissəsi əsasən turistlər üçün nəzərdə tutulub. Restoranlar və muzeylərin əksəriyyəti həmin zonada yerləşir. Orada yaşayan insanların sayı azdır. Yaşayış zonası əsasən Şirvanşahlar Sarayı ətrafını əhatə edir. Bu yanaşma turist axını ilə sakinlərin rahat yaşayışı arasında balans yaratmağa xidmət edir".

## "SAKİNLƏRİN SİYAHIYA ALINMASI APARILIR"

Rüfət Mahmud bildirib ki, İçərişəhər ərazisində yaşayan sakinlərin siyahıyaalınması həyata keçirilir. Onun sözlərinə görə, hazırda əməkdaşlar və könüllülərdən ibarət qruplar qapı-qapı gəzərək sakinlər barədə məlumat toplayırlar: "İçərişəhərdə yaşayan sakinlərin sayını bu gün ancaq təxmini deyə bilirik. Hazırda əhalinin uçotu aparılır və bir neçə aydan sonra tam məlumat bazamız olacaq. Toplanan məlumatlar gender bölgüsü, yaş kateqoriyaları, ailələrin gəlir mənbələri və sosial vəziyyətini əhatə edir. Bu datanın formalaşdırılması gələcək idarəetmə və xidmətlərin planlaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır".

### "SAKİNLƏRİN GÜNDƏLİK HƏYATINA TƏSİR EDİR"

R.Mahmud əlavə edib ki, İçərişəhər ərazisində artan turist axınının sakinlərin gündəlik həyatına təsiri hiss olunur. Onun sözlərinə görə, tarixi şəhərlərdə yaşamaq müasir şəhər mühitindən daha fərqli və çətin şərtlər tələb edir: "İçərişəhərdə və tarixi şəhərlərdə yaşamaq heç də asan deyil. Bizim vəzifəmiz sakinlərin rahatlığını maksimum təmin etməkdir. "Tourist pressure" adlanan turizm təzyiqinin düzgün idarə olunması üçün yeni yanaşmalar tətbiq edilir. Bu istiqamətdə nəqliyyatın idarə olunması, rəqəmsal xidmətlərin genişləndirilməsi və infrastrukturun daha səmərəli təşkili əsas prioritetlər sırasındadır".



# SOCAR-ın prezidenti Esvatini Kralı ilə görüşüb

SOCAR-ın prezidenti Rövşən Nəcəf ölkəmizdə səfərdə olan Esvatini Kralı Əlahəzrət III Msvati ilə görüşüb. Görüşdə Azərbaycan ilə Esvatini arasında enerji sahəsində dialoqun genişlənməsinin gələcək əməkdaşlıq baxımından əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı qonağa SOCAR-ın enerji sektorundakı çoxşaxəli fəaliyyəti, o cümlədən neft-qaz hasilatı, emal, nəql, qaz təchizatı və digər əməliyyatlar, eləcə də insan kapitalının inkişafı istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib. Bu xüsusda, SOCAR-ın qlobal genişlənmə strategiyası əsasında görülən işlərdən bəhs olunub.

Görüşdə enerji sektorunun müxtəlif istiqamətlərində əməkdaşlıq imkanları nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, SOCAR prezidenti Rövşən Nəcəf Keniya Prezidenti Uillyam Samoei Ruto ilə də görüş keçirib. Görüşdə dövlət başçısına SOCAR-ın strateji hədəfləri, Azərbaycanda və onun hüdudlarından kənarda həyata keçirdiyi enerji layihələri barədə ətraflı məlumat verilib.

# "SUMMERSTACK BOOTCAMP" BAŞLAYIR

İnnovasiya lideri "Bakcell" gənclərin rəqəmsal bacarıqlarının inkişafına yönəlmiş təşəbbüslərini davam etdirir. Şirkətin tərəfdaşlığı ilə "Peerstack Academy" tərəfindən "Java" və "Python" proqramlaşdırma dilləri üzrə "SummerStack Bootcamp" proqramı həyata keçiriləcək.

Üç ay müddətində davam edəcək "bootcamp" proqramının əsas məqsədi gənclərə proqramlaşdırma sahəsində fundamental biliklər qazandırmaq, onları real layihələr üzərində işləməyə cəlb etmək və İT karyerasına güclü başlanğıc imkanı yaratmaqdır.

Proqram "Java" və "Python" proqramlaşdırma istiqamətlərini əhatə edir. Tədris prosesi qarşılıqlı öyrənmə və layihə əsaslı tədris modelləri əsasında qurulacaq. İştirakçılar təcrübəli mentorların dəstəyi ilə praktiki nümunələr üzərində işləyəcək, nəzəri biliklərini praktik tapşırıqlar vasitəsilə tətbiq edəcəklər. "Bakcell"-in dəstəyi ilə həyata keçirilən təqaüd proqramı çərçivəsində iştirakçılara 70%-dək təqaüd imkanı təqdim olunacaq.




Qeydiyyatdan keçən iştirakçılar məntiq və proqramlaşdırma biliklərini əhatə edən imtahan mərhələsində, daha sonra isə müsahibə prosesində iştirak edəcəklər.

Proqram iştirakçıların gələcəkdə İT sahəsində peşəkar inkişafı, real iş mühitinə uyğun bacarıqlar qazanması və bu sahədə uğurlu karyera qurmasına dəstək olacaq.

"Bakcell" və "Peerstack Academy" arasında qurulan bu əməkdaşlıq innovativ ideyaların real texnoloji həllərə çevrilməsi üçün yeni imkanlar yaratmaqla yanaşı, ölkədə texnologiya sahəsində insan kapitalının inkişafına töhfə verməyi hədəfləyir.

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Laləə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 675
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# MƏRHƏMƏT VƏ BƏRABƏRLİK BAYRAMI

Qurban bayramı özündə ali fədakarlıq və bərabərlik prinsiplərini birləşdirir. İbadətin qəbul olunması üçün isə heyvanın yaş həddindən tutmuş kəsimin aparılma vaxtına və ətin düzgün paylanmasına qədər bir sıra qaydalara riayət edilməsi şərtdir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İslam dünyasının əsas bayramlarından biri sayılan Qurban bayramı hər il olduğu kimi, bu il də Azərbaycanda geniş miqyasda xüsusi təntənə ilə qeyd olunacaq. Hicri təqvimi ilə zilhiccə ayının 10-cu günündən başlayan və ardıcıl olaraq bir neçə gün davam edən bu bayram təkcə dini bir ayin olaraq qalmır, eyni zamanda cəmiyyətdə dərin sosial həmrəylik, bərabərlik və xeyirxahlıq dəyərlərini təşviq edir. 1992-ci ildən etibarən ölkəmizdə dövlət səviyyəsində rəsmi olaraq qeyd edilən Qurban bayramı bu il may ayının 27-də başlayacaq. Bəs minilliklərlə ölçülən bir tarixə malik olan bu bayramın əsl mahiyyəti nədən ibarətdir? Heyvan kəsimi zamanı həm dini, həm də etik baxımdan hansı qaydalara əməl olunmalıdır?

## ALLAHA ŞÜKÜR ETMƏK, EHTİYAC SAHİBLƏRİNİ SEVİNDİRMƏK

İlahiyyatçı Yaşar Qurbanovun sözlərinə görə, İslam inancında Qurban ibadəti tarixi baxımdan birbaşa İbrahim peyğəmbərin rəvayəti ilə bağlıdır: "Dini mənbələrdə, xüsusən Qurani-Kərimin "Saffat" surəsində qeyd olunur ki, bu mühüm ibadətin fəlsəfəsində məhz İbrahim peyğəmbərin mənəvi imtahandan keçməsi dayanır. Qurani-Kərimin "Həcc" və "Kövsər" surələrində bu məsələyə xüsusi diqqət çəkilərək vurğulanır ki, Allaha çatan kəsilən heyvanın əti və ya qanı deyil, insanların səmimi ibadəti, təqvası və niyyətinin paklığıdır. Bu baxımdan, Qurban bayramının əsas mahiyyəti yaradanın verdiyi saysız-hesabsız nemətlərə görə şükür etmək, ehtiyac sahiblərini sevindirmək, cəmiyyətdə mehribanlığı və rəhmdilliyi artırmaqdır".

İlahiyyatçının sözlərinə görə, bu il bayram günləri mayın 27-28-ə təsadüf edir: "Bayram namazı ilk gün məscidlərdə camaatla birlikdə qılınır. Namaz əsasən saat 08:00-da, bəzi yerlərdə və məscidlərdə isə 09:00-da baş tutur. Şəriət qaydalarına və İslam ənənələrinə görə, qurban mütləq şəkildə bayram namazı qılındıqdan sonra kəsilməlidir. Hədislərdə də xüsusi olaraq qeyd olunur ki, bu əməli bütün qaydalara uyğun, səmimi qəlbdən yerinə yetirən şəxs böyük mənəvi savab qazanır".

## "HEYVANDA EYİB OLMAMALIDIR"

İlahiyyatçı bildirir ki, qurbanlıq heyvan seçilərkən həm fiziki göstəricilərə, həm də alqı-satqı qaydalarına ciddi şəkildə əməl olunmalıdır: "Qaydalara görə, qurbanlıq kimi seçilən heyvan müəyyən yaş həddinə çatmalıdır ki, bu da həm sağlamlıq, həm də yetkinlik baxımından vacibdir. Qoyun və qoç ən azı altı ayını, keçi bir yaşını, inək və ya camış iki yaşını, dəvə isə beş yaşını tamamlamalıdır. Dini icazələrə əsasən, qoyun və keçi yalnız bir nəfərin adından kəsilə bilər. Lakin iribuynuzlu heyvanlar bir nəfərdən yeddi nəfərə qədər şəxsin adından şərikli şəkildə qurban kəsilə bilər. Bu isə imkanı məhdud olan insanların da birləşərək bu ibadəti yerinə yetirməsinə şərait yaradır. Şərtlərə görə, kəsiləcək heyvanda korluq, axsaqlıq, aşkar görünən ağır xəstəlik, həddindən artıq arıqlıq və halsızlıq, eləcə də qulaq və buynuzun dibindən kəsilməsi (və ya sınması) kimi fiziki eyiblər olmamalıdır. Eyni zamanda, alqı-satqı prosesi halallıqla baş tutmalıdır".

Y.Qurbanov əlavə edir ki, kəsimdən sonra ətin bölünməsində ənənəvi "üç bərabər hissə" prinsipi mövcuddur ki, bu da özündə İslamın sosial ədalət və paylaşma prinsiplərini əks etdirir: "Tövsiyə olunur ki, ətin bir hissəsi təmənnasız şəkildə kasıblara və ehtiyac sahiblərinə sədəqə verilsin. İkinci hissəsi maddi durumun-dan asılı olmayaraq, bayramlaşmaq niyyəti ilə qohumlara, dostlara və qonşulara paylanılsın. Üçüncü hissəsi isə insanın özü və ailə üzvlərinin qidalanması üçün ayrılsın. İstəyə görə ətin hamısını ehtiyaclılara paylamaq icazəli olsa da, ailə üzvlərinin də bayram günündə bu ətdən dadması xüsusi məsləhət görülür. Həmçinin, kəsilmiş heyvanın qaraciyərindən ilk qida kimi yemək də dini ənənələrə görə müstəhəb sayılır".

## "QƏSSABA ƏTLƏ ZƏHMƏTHAQQI ÖDƏNİLMƏZ"

Diqqət edilməli vacib və həssas məqamlardan biri də heyvanı kəsən qəssabın əməkhaqqı məsələsi və heyvanın qalıqlarının necə istifadə olunmasıdır. İlahiyyatçı bu barədə deyir: "Qəssaba gördüyü işin, yəni zəhmətinin haqqı olaraq qurban əti, dərisi və ya hər hansı bir əzası verilə bilməz. Qəssabın pulu ayrıca ödənilməlidir. Zəhmətaqqı tam ödənildikdən sonra, sırf sədəqə və ya bayram hədiyyəsi niyyəti ilə ona da əlavə ət payı vermək də olar. Kəsilən qurbanın dərisini satmaq və maddi mənfəət əldə etmək qadağandır".

Din xadimi qeyd edir ki, sülh və xoşməramlılıq məqsədilə bu qurban ətindən qeyrimüsəlman qonşulara və tanışlara pay vermək də təqdirəlayiq hesab edilir: Həmçinin, maddi imkanı olmayan insanların və ya səfərdə, başqa ölkədə yaşayan şəxslərin öz adından etibarlı bildiyi kiməsə vəkalət verərək başqa məkanda qurban kəsdirməsi də dini baxımdan tam məqbul sayılır.

## "SOSİAL HƏMRƏYLİYİN ƏN UNİKAL NÜMUNƏLƏRİNDƏN BİRİDİR"

Yaşar Qurbanov xüsusilə vurğulayır ki, Qurban bayramı cəmiyyətdəki sosial həmrəyliyin, mərhəmətin və qardaşlığın ən unikal nümunələrindən biridir: "Bu ibadət insanları daim bir-birinə kömək etməyə, yardımlaşmağa, mənəvi bərabərliyə və verilən ruziyə görə şükür etməyə səsləyir. Qurban kəsərkən məsələyə sadəcə texniki qaydalara, adətlərə əməl etmək kimi baxmaq yox, həm də bu ibadətin dərin mənəvi və psixoloji mahiyyətini anlamaq, kəsilən heyvanın ehtiyac sahiblərinə sevinc bəxş etdiyini dərk etmək şərtdir. Əsl bayram cəmiyyətdəki sosial fərqlərin azaldığı və ehtiyac sahiblərinin üzünün güldüyü gündür".

# ABŞ-ÇİN MÜNASİBƏTLƏRİNDƏ YENİ MƏRHƏLƏ

Si-Tramp görüşündə ən mühüm qərarlar bağlı qapılar arxasında əldə edilən razılaşmalarda gizlənir. Verilən mesajlar göstərir ki, əməkdaşlıq meyli gərginliyə üstün gəlir. Tərəflər arasında bütün problemlər aradan qalxmasa da, ən azı iqtisadi sahədə müəyyən yumşalma müşahidə oluna bilər.





AZƏR NURİYEV

ABŞ Prezidenti Donald Trampın Çin Xalq Respublikasına (ÇXR) səfəri beynəlxalq siyasətdə ən mühüm hadisələrdən biri kimi qiymətləndirilir. Dünyanın iki ən böyük iqtisadi və siyasi gücü arasında münasibətlərin inkişafı yalnız Vaşinqton və Pekin üçün deyil, bütövlükdə beynəlxalq sistem üçün mühüm əhəmiyyət daşıyır. ABŞ və Çin münasibətləri son illərdə ticarət müharibələri, texnologiya sahəsində rəqabət, Tayvan məsələsi və regional təhlükəsizlik problemləri səbəbindən mürəkkəb mərhələdən keçib. Məhz belə bir şəraitdə Donald Trampın Çinə səfəri tərəflər arasında dialoqun bərpası və münasibətlərin yeni istiqamətdə inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edib.

**İQTİSADİ MÜNASİBƏTLƏR**

Səfər çərçivəsində əsas müzakirə mövzularından biri iqtisadi münasibətlər olub. ABŞ və Çin dünya iqtisadiyyatının əsas lokomotivləri hesab olunur, iki ölkə arasındakı ticarət dövriyyəsinin həcmi yüz milyardlarla dollarla ölçülür. Buna görə də tərəflər arasında yaranan hər hansı gərginlik qlobal bazarlara birbaşa təsir edir. Donald Tramp görüşdən sonra Çinlə ticarət münasibətlərində ABŞ-nin maraqlarının qorunmasını prioritet məsələ kimi təqdim edib. Çin tərəfi isə iqtisadi əməkdaşlığın qarşılıqlı fayda prinsipi əsasında davam etdirilməsinin vacibliyini vurğulayıb.

**TƏHLÜKƏSİZLİK VƏ GEOSİYASİ MƏSƏLƏLƏR**

Səfər zamanı təhlükəsizlik və geosiyasi məsələlər də əsas gündəm mövzuları sırasında yer alıb. Xüsusilə Asiya-Sakit okean regionunda güc balansı, Tayvan ətrafında artan gərginlik və Cənubi Çin dənizindəki vəziyyət tərəflər arasında fikir mübadiləsinə səbəb olub. ABŞ regionda öz strateji maraqlarını qorumağa çalışdığı halda, Çin daxili məsələlərinə xarici müdaxiləni qəbul etmədiyini bəyan edir.

Səfərin nəticələri gələcəkdə ABŞ-Çin münasibətlərinin hansı istiqamətdə inkişaf edəcəyinə müəyyən təsir göstərəcək. Əgər tərəflər qarşılıqlı anlaşma və əməkdaşlıq imkanlarını genişləndirə bilsələr, bu, dünya iqtisadiyyatı və beynəlxalq təhlükəsizlik baxımından müsbət nəticələr doğura bilər. Əks halda isə iki böyük güc arasında rəqabətin daha da sərtləşməsi qlobal siyasi proseslərə təsirsiz ötüşməyəcək.

**TAYVAN NARAZI QALIB**

Ən əsası Donald Trampın Çin Sədri Si Cinpinlə "Tayvan məsələsi"ni müzakirə etməsi ada hakimiyyətini narahat edib. Onlar bəyan ediblər ki, adanın mövqeyi birmənalıdır: Tayvan ÇXR-in tərkib hissəsi olmayan suveren bir ölkədir. Buna görə də adanın gələcəyinə dair müzakirələri orada qəbuledilməz hesab edirlər. Bu "Tayvan mesajı" təkcə ÇXR rəhbərliyinə deyil, həm də ABŞ Prezidentinə ünvanlanıb. Tayvan lideri Lay Çindenin ofisinin nümayəndəsi Karen Ko bəyan edib ki, suveren ölkədirlər və bu, hamı üçün aydındır. Əgər Si söhbətdə Trampı Tayvan məsələsində "səhv" addımlardan çəkindirməsəydi, bəlkə də Taypeyin belə bir şərhə ehtiyacı olmazdı. Buna görə də Tramp "Fox News"-a müsahibəsində Tayvanın müstəqillik elan etməsinə yönəlmiş istənilən cəhdləri bəyənmədiyini bildirib. Ağ Evin sahibinin sözlərinə görə, müstəqillik elan etmək cəhdi riskli bir işdir. Bunu müdafiə edən insanlar "arxalarında ABŞ-nin durduğunu" düşünərək müharibə istəyirlər.




## ƏMƏKDAŞLIQ MEYLİ GƏRGİNLİYƏ ÜSTÜN GƏLİR

Ekspertlər hesab edirlər ki, görüşün ən mühüm nəticəsi bağlı qapılar arxasında əldə edilən razılaşmalar ola bilər. Verilən mesajlar göstərir ki, əməkdaşlıq meyli gərginliyə üstün gəlir. Tərəflər arasındakı bütün problemlər aradan qalxmasa da, ən azı iqtisadi sahədə müəyyən yumşalma müşahidə oluna bilər. Təxminən 55 il əvvəl ABŞ Prezidenti Riçard Niksonun Pekinə tarixi səfərindən sonra Vaşinqtonun dəstəyi ilə Çin sürətli inkişaf mərhələsinə qədəm qoydu və bu gün dünyanın ikinci ən böyük iqtisadi gücünə çevrildi. Çin hazırda texnologiya sahəsində də ciddi nailiyyətlər əldə edib. Bu istiqamətdə əməkdaşlıq imkanları da istisna deyil. Ağ Ev səfər çərçivəsində mühüm iqtisadi anlaşmaların imzalandığı barədə bəyanat yayıb. Qeyd edilib ki, iki lider iqtisadi münasibətləri yaxşılaşdırmaq məqsədi ilə ABŞ-Çin Ticarət və İnvestisiya Şuraları yaratmağa qərar veriblər. Digər razılaşma çərçivəsində Çində ABŞ malları üçün yeni bazarlar açılacaq, amerikalılara bu ölkədə yüksək maaşlı iş yerləri yaradılacaq. Həmçinin Çin 200 Amerika istehsalı "Boeing" təyyarəsi almaq öhdəliyi götürüb. Bundan başqa, Çin nadir torpaq elementləri və digər vacib minerallar üçün təchizat zəncirində qopmalarla bağlı ABŞ-nin narahatlığını, eləcə də məhdudiyyətlərlə bağlı məsələləri operativ formada həll edəcək. Həmçinin, Çin ABŞ-dən 2026, 2027 və 2028-ci illərdə hər il ən azı 17 milyard dollar dəyərində kənd təsərrüfatı məhsulları alacaq. Eyni zamanda, Çinin Amerikanın mal və quş əti bazarından hər il minlərlə ton məhsul almaq öhdəliyi razılaşmaya daxil olunub.

Göründüyü kimi, ABŞ, daha dəqiq ifadə etsək, Tramp hakimiyyəti hər şeydən əvvəl iqtisadi məsələləri önə çəkməyə üstünlük vermək siyasətini davam etdirir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# GƏNCLƏR TIXACLARA QALİB GƏLİRLƏR

Skuter və velosipedlər artıq sadəcə əyləncə vasitəsi deyil, gənclərin gündəlik, sürətli və rahat hərəkət seçimidir. Lakin düzgün parklanmama halları və bəzi ərazilərdə şəbəkənin məhdudluğu həm istifadəçilər, həm də piyadalar üçün müəyyən çətinliklər yaradır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Foto: Rüfət Mikayılov/ Global Photostock

Artıq skuter və velosipedlər gənclər üçün sadəcə əyləncə vasitəsi deyil, gündəlik həyat tərzinin ayrılmaz bir hissəsinə, tıxaclardan qurtulmaq və vaxta qənaət etmək üçün əsas alternativə çevrilib. Bu tendensiyanı dəstəkləmək məqsədilə ölkədə gənclər arasında mikromobilliyin təşviqi üçün yeni tədbirlər planı hazırlanır və yaxın aylarda ictimaiyyətə təqdim olunacaq. Bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) şöbə müdiri Elmira Abasova məlumat verib. Bəs hazırda bu sahədə mövcud vəziyyət necədir?

## TƏLƏB SÜRƏTLƏ ARTIR

AYNA-dan sorğumuza cavab olaraq bildirildi ki, qurum tərəfindən mikromobillik infrastrukturunun inkişafı, şəhər konsepsiyası çərçivəsində zolaqlar şəbəkəsinin genişləndirilməsi və kiçik nəqliyyat vasitələrindən istifadənin təşviqi bu sahəyə marağı əhəmiyyətli dərəcədə artırıb. Artıq Bakıda, o cümlədən bəzi ali məktəblərin ətrafı da daxil olmaqla, 63,2 kilometr mikromobillik zolağı salınıb: “Görülən işlər çərçivəsində skuterlər üçün 1000, velosipedlər üçün isə 623 parklanma məntəqəsi təşkil edilib. Hazırda icarəyə verilən skuterlərin sayı 4161, velosipedlərin sayı isə 2200-dür. Statistik göstəricilər mikromobilliyə olan tələbatın sürətlə artdığını nümayiş etdirir. 2026-cı ilin ilk 4 ayı ərzində Bakı şəhəri üzrə mikromobillik vasitələri 1 044 615 dəfə sifariş olunub və ümumilikdə 2 085 306 km məsafə qət edilib. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə sifariş sayında 1,5 dəfə, qət edilən məsafədə isə 1,1 dəfə artım qeydə alınıb. Cari ilin yanvar-aprel aylarında alternativ nəqliyyat növü kimi bu vasitələrdən istifadə edənlərin sayı 496 682 nəfər təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,4 dəfə çoxdur”.

## “İSTİFADƏÇİLƏRİMİZİN ƏKSƏRİYYƏTİ GƏNCLƏRDİR”

“APAR” velosiped və skuter kirayəsi şirkətinin direktoru Əli Əhmədlinin sözlərinə görə, son illər gənclər arasında mikromobilliyə maraq nəzərəçarpacaq dərəcədə artıb: “Velosiped və skuterlərdən artıq yalnız əyləncə vasitəsi kimi deyil, gündəlik hərəkət alternativi kimi də istifadə olunur. Universitetə, işə, müxtəlif tədbirlərə və şəhərdaxili qısa məsafələrə gedərkən gənclər daha praktik və çevik seçimlərə üstünlük verirlər. Bu baxımdan, mikromobillik tədricən gənclərin həyat tərzinin ayrılmaz bir hissəsinə çevrilir. İstifadəçilərimizin böyük əksəriyyətini də məhz gənclər təşkil edir”.

Ə.Əhmədlinin fikrincə, ən çox rastlaşdıqları problemlərdən biri düzgün parklanma qaydalarına riayət olunmamasıdır: “Bəzən vasitələrin parkinq zonasından kənarda saxlanılması və ya düzgün yerləşdirilməməsi piyadalar, avtomobillər və digər hərəkət iştirakçıları üçün ciddi maneə yaradır. Bundan əlavə, bəzi istifadəçilərin təhlükəsizlik qaydalarına kifayət qədər diqqət yetirməməsi də narahatlıq doğuran məsələlərdəndir”.

## “Müxtəlif kampaniyalar həyata keçirilir”

Ə.Əhmədlinin sözlərinə görə, istifadəçilərdən, xüsusilə də gənclərdən gələn təkliflər əsasən yeni parkinq zonalarının yaradılması, universitetlərin və ictimai məkanların yaxınlığında daha çox vasitənin yerləşdirilməsi ilə bağlı olur. Şikayətlər isə, bir qayda olaraq, pik saatlarda bəzi zonalarda vasitələrin tez tükənməsi və müəyyən ərazilərdə parkinq imkanlarının məhdudluğu ilə əlaqədardır.

Şirkət rəhbəri bildirdi ki, mövcud tələbatı və marağı nəzərə alaraq, gənclər üçün mütəmadi müxtəlif kampaniyalar həyata keçirilir: “Tələbələr və gənc istifadəçilər üçün endirimli abunə paketləri, xüsusi tariflər təklif edilir”.

## Qəzaların sayında ciddi azalma var

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev də düşünür ki, mikromobillik artıq Bakıda reallıqdır və tam şəbəkələşib: “İllər üzrə istifadəçi sayı davamlı olaraq artır. Ən populyar vasitələr elektroskuterlər və elektrovelosipedlərdir”.

R.Ağamirzəyevin sözlərinə görə, gənclərin ən çox şikayət etdiyi məsələ bəzi yerlərdə infrastruktur boşluqlarının olmasıdır: “Yəni, şəbəkənin tam formalaşmaması və ya mikromobillik zolaqlarının onların yaşadıqları məntəqələrə qədər uzanmaması əsas problem kimi qabardılır. Şəbəkənin genişləndirilməsi vacibdir, lakin mövcud infrastrukturun qorunması, yəni zəbt edilməsi hallarına qarşı mübarizə daha prioritetdir. Paralel olaraq piyada səkiləri abadlaşdırılmalı və zebra keçidlərinin sayı artırılmalıdır. Yalnız bu halda mövcud xaotik hərəkəti nizama salmaq imkanı yaranacaq. Təbii ki, istifadəçi sayı artdıqca xaotik hərəkət edənlər də diqqət çəkir. Lakin faiz etibarilə yanaşsaq, son üç ildə mikromobillik zolaqları salındıqdan sonra qəzaların statistikasında ciddi və ya ölümlə nəticələnən hadisələrin olmaması çox müsbət haldır”.

## “ƏGƏR TƏLƏBƏ MULTİMODAL BİR SƏFƏR TƏŞKİL EDİRSƏ...”

Ekspertin fikrincə, mikromobilliyin gənclərin həyat tərzinə çevrilməsi istiqamətində ciddi təbliğata ehtiyac var: “Düzdür, istifadəçilərin əksəriyyətini məhz gənclər təşkil edir, lakin bu göstəricini daha da artırmaq potensialı mövcuddur. Xüsusilə universitetlərdə gənclərin daha aktiv istifadəsini təmin etmək üçün fərqli və kreativ yanaşmalar düşünülməli, onlara daha cəlbedici, stimullaşdırıcı paketlər təklif edilməlidir. Bu vasitələr həm sürətlidir və tıxac problemini həll edir, həm də rahatdır, insanın əhval-ruhiyyəsini yüksəldir. Tələbələr üçün bu vasitələr olduqca əlverişlidir. Əgər tələbə multimodal bir səfər təşkil edirsə, marşrutdan asılı olaraq avtobus əvəzinə müəyyən məsafələri mikromobillik vasitələri ilə tıxacsız qət edə bilər. Dövlət gənclərə dəstək olaraq stimullaşdırıcı tədbirlər görməli və təbliğat işlərini daha da genişləndirməlidir. Cəmiyyətdəki stereotipləri qırmaq üçün yaxşı olardı ki, universitet müəllimləri də mikromobilliyə tamhüquqlu nəqliyyat növü kimi yanaşsınlar”.



Rauf Ağamirzəyev

# KOMBİ DÖVRÜ SONA ÇATIR?



**Yeni qərarla çoxmənzilli yaşayış binalarında mənzillər üzrə fərdi istilik sistemlərinin quraşdırılmasına yalnız müəyyən hallarda icazə veriləcək. Ekspertlər bu yanaşmanı yeni modelə keçid kimi xarakterizə edirlər.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Nazirlər Kabineti "Çoxmənzilli yaşayış binaları layihələndirilərkən hər bir mənzil üzrə fərdi istilik sistemlərinin quraşdırılmasına icazə verilən hallar"ı təsdiq edib. Belə ki, çoxmənzilli yaşayış binalarında mənzillər üzrə fərdi istilik sistemlərinin quraşdırılmasına yalnız müəyyən hallarda icazə veriləcək. Qərara əsasən, bu sistemlər yalnız müəyyən hallarda, o cümlədən 5 mərtəbəyədək binalarda layihələndirilə biləcək. Halbuki son illərdə tikilən yeni yaşayış binalarının əksəriyyətində fərdi istilik sistemi kimi kombi nəzərdə tutulur.

Qərar kombi sistemi olan mövcud və planlaşdırılan binalara necə təsir edəcək, ümumilikdə yeni tikinti və mənzil bazarında hansı dəyişikliklərə səbəb ola bilər?

### "QƏRAR YENİ BİNALARA ŞAMİL OLUNUR"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc deyir ki, bu tələblər yalnız bundan sonra layihələndiriləcək yeni binalara şamil olunur: "Hüquqi baxımdan hər hansı normativ aktın geriyə qüvvəsi yoxdur. Mövcud binalarda fərdi istilik sistemləri istifadədə qalacaq. Lakin yeni qaydalara əsasən bəzi binalarda fərdi sistemlərin tətbiqi üçün texniki imkanlar məhdud ola və ya ümumiyyətlə nəzərdə tutulmaya bilər. Bu halda yeni binalarda mərkəzləşdirilmiş istilik və digər alternativ sistemlər layihə mərhələsində nəzərdə tutulmalıdır".

Bu dəyişikliklərin mənzil bazarına və qiymətlərə təsirinə gəldikdə isə, ekspert bildirir ki, ilk növbədə tikinti xərclərinin artması amili var: "Çünki mərkəzləşdirilmiş istilik sistemləri əlavə infrastruktur tələb edir. Buraya həm idarəetmə xərcləri, həm qazanxananın saxlanılması, həm də texniki xidmət xərcləri daxildir. Əgər bina düzgün izolyasiya olunmayıbsa və enerji səmərəliliyi aşağıdırsa, aylıq xərclər daha da arta bilər ki, bu da sakinlər üçün əlavə maliyyə yükü yaradacaq. Digər tərəfdən, yeni normativlərə uyğun tikilən binalar daha təhlükəsiz və texniki baxımdan daha müasir olacaq. Xüsusilə qaz təhlükəsizliyi baxımından mərkəzləşdirilmiş sistemlərin üstünlükləri var".

### MƏNZİL QİYMƏTLƏRİ ARTACAQ?

V.Orucun sözlərinə görə, uzunmüddətli perspektivdə bu dəyişikliklər daha komfortlu və təhlükəsiz yaşayış şəraiti yarada bilər. Lakin qısa müddətdə mənzil qiymətlərinin və yaşayış xərclərinin artması ehtimalı var: "Ümumilikdə, şəhər yaşayışında əvvəlki daha ucuz model tədricən dəyişir və daha çox xidmət əsaslı, daha bahalı, amma eyni zamanda daha təhlükəsiz və komfortlu yaşayış modelinə keçid baş verir. Yeni qaydalar yeni layihələrdə və tikililərdə həm layihələndirmə, həm də tikinti yanaşmasını dəyişəcək. Bu, prinsip etibarilə daha komfortlu, daha təhlükəsiz və binaların görünüşü baxımından müasir standartlara uyğun tikililərin inşasını təşviq edən yanaşmadır. Eyni zamanda bu model vətəndaşların təhlükəsizliyinin daha yaxşı təmin olunmasına, vahid mərkəzdən istismar xidmətlərinin göstərilməsinə və digər kommunal ehtiyacların daha sistemli şəkildə qarşılanmasına imkan yaradacaq. Bu isə faktiki olaraq binaların peşəkar idarəetmə sisteminin formalaşması deməkdir. Əgər gələcəkdə binaların idarə olunması ilə məşğul olan ayrıca peşəkar şirkətlər və ya idarəetmə strukturları formalaşarsa, bu, ümumilikdə şəhərsalmada yeni yanaşmanın bir hissəsinə çevriləcək. Bu model daha çox müasir urbanizasiya prinsiplərinə əsaslanır. Bu dəyişikliklər bazarda da ciddi transformasiya yaradacaq. Çünki zaman keçdikcə köhnə tikililər söküləcək və onların yerində yeni normativlər əsasında inşa edilən binalar tikiləcək. Bu gün müasir hesab etdiyimiz bəzi yeni tikililər də gələcəkdə köhnə fonda çevriləcək. Onların yerini isə artıq daha yüksək standartlara cavab verən, yeni layihələndirmə prinsipləri ilə tikilən və A, B, C enerji səmərəliliyi pasportlarına malik binalar tutacaq. Yəni bazar mərhələli şəkildə yenilənəcək və alıcı seçimi getdikcə daha çox enerji səmərəliliyi, təhlükəsizlik, idarəetmə keyfiyyəti və yaşayış komfortu kimi meyarlar üzərində formalaşacaq".




## Alternativ enerji, səmərəli istilik həlli

İnşaat eksperti Elnur Azadov deyir ki, bu qərarın qəbul edilməsinin arxasında bir neçə əsas səbəb dayanır və məsələni yalnız mənzil bazarı prizmasından qiymətləndirmək düzgün olmaz: "Burada alternativ enerji və daha səmərəli istilik həllərinə keçid məsələsi də var. Əsas səbəblərdən biri ekoloji amillərlə bağlıdır. Fərdi qaz sistemlərinin geniş yayılması qaz emissiyalarını artırır və bu da xüsusilə iri şəhərlərdə ekoloji yük yaradır. Dövlətin daha ekoloji şəhər mühiti formalaşdırmaq istiqamətində hədəfləri var".

### YENİ TİKİLİLƏRİN ƏSAS PRİORİTETLƏRİ

İnşaat mütəxəssisi vurğulayır ki, ikinci məsələ təhlükəsizliklə bağlıdır: "Keyfiyyətsiz quraşdırılmış fərdi istilik sistemləri bəzi hallarda qaz sızması, partlayış və digər təhlükəli hallara səbəb olur. Bu baxımdan mərkəzləşdirilmiş və daha nəzarətli sistemlər riskləri azaltmağa hesablanıb. Digər mühüm məsələ isə mərkəzləşdirilmiş qazanxana sistemlərinin inkişaf etdirilməsi ilə bağlıdır. Son illərdə bu istiqamətdə müxtəlif müzakirələr aparılırdı və nəticə etibarilə qərar verildi ki, gələcəkdə yeni tikilən binaların bu sistemlərə inteqrasiyası daha geniş tətbiq olunsun. Bununla yanaşı, binaların enerji səmərəliliyinin artırılması istiqamətində də işlər görülür. Yeni tikililərdə izolyasiya standartlarının gücləndirilməsi, enerji sərfiyyatının azaldılması və daha effektiv resurs istifadəsi əsas prioritetlərdən biridir".

### BELƏ BİR SİSTEM FORMALAŞARSA...

Həmsöhbətimizin sözlərinə görə, gələcəkdə enerji effektivliyi ilə bağlı daha sərt qanunvericilik tələblərinin tətbiqi də mümkündür. Bu çərçivədə binalara enerji siniflərinin verilməsi nəzərdə tutula bilər: "Belə bir sistem formalaşarsa, yüksək enerji sinfinə malik binalar bazarda daha cəlbedici olacaq və hətta gələcəkdə onların kommunal xərclər baxımından da müəyyən üstünlüklər əldə etməsi mümkündür. Yəni bu qərar yalnız istilik sistemlərinin dəyişdirilməsi deyil, daha geniş şəkildə şəhərsalma, enerji səmərəliliyi, təhlükəsizlik və ekologiya siyasətinin bir hissəsi kimi qiymətləndirilməlidir".

# TURİZM BAZARINDA ANLAŞILMAZLIQ

Turoperatorların erkən rezervasiya etmiş müştərilərdən əlavə ödəniş tələb etmələri ciddi anlaşılmazlığa səbəb olub. Turizm agentliklərinin təmsilçiləri də hesab edirlər ki, bu, heç bir etik çərçivəyə sığmayan istəkdir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




"ƏVVƏLDƏN SATILAN MƏHSUL ÜÇÜN ƏLAVƏ 65 ABŞ DOLLARI TƏLƏB ETMƏK ƏSASSIZDIR"

Bəzi turoperatorların Türkiyə istiqamətinə erkən rezervasiyalarla bağlı adambaşına 65 ABŞ dollar məbləğində əlavə ödəniş tələbi turistlərlə turagentlikləri üz-üzə qoyub. Turoperatorlar dünyada yanacağın qiymətinin bahalaşmasını əsas gətirərək aviabiletlərin qiymətində dəyişiklik olduğunu bildirir və əlavə ödəniş tələb edirlər.

Bəs erkən rezervasiyalar üçün əlavə ödəniş tələb etmək hansı hüquqi və etik qaydalara uyğundur? Bu, müştərilərin hüquqlarını pozmurmu?

### "İNSANLAR UCUZ OLMASI ÜÇÜN PAKETİ 3-5 AY QABAQDAN ƏLDƏ EDİBLƏR"

Turizmçi Rəhman Quliyevin sözlərinə görə, adətən vətəndaşlar həm qiymət, həm seçim baxımından əlverişli olması üçün öncədən turpaketlər sifariş edirlər: "Amma indi turoperatorların əvvəldən satılan məhsul üçün adambaşına əlavə 65 ABŞ dolları tələb etmələri əsassızdır. Turagentliklər bu məsələni başa düşsələr də, turistlərin bunu anlayışla qarşılamaları mümkünsüzdür. Çünki insanlar ucuz olması üçün paketi 3-5 ay qabaqdan əldə ediblər. Biz onlayn saytlara da nəzər salsaq görərik ki, hələlik aviabiletlərin qiymətində bahalaşma olmayıb. Düzdür, dünyadakı geosiyasi vəziyyətə görə enerji və loqistika qiymətləri qalxıb. Yanacaq qiymətlərində də qalxma müşahidə olunur. Bu da yaxın gələcəkdə aviabiletlərin qiymətinin qalxmasına ehtimal verir. Amma bu reallıq bu gündən sonraya rəsmiləşdirilən rezervasiyalara şamil olunmalıdır".

R.Quliyev bildirir ki, öncədən paket satan turoperatorlar bir neçə ay əvvəldən 30 faiz ödənişi alıblar: "Onlar öz işlərini düzgün şəkildə həll etsəydilər, müqaviləni aviaşirkətlə düzgün bağlasaydılar və əldə etdikləri 30 faizdən qrup şəklində ödəniş etsəydilər, həmin blok yerləri müqavilədə bağlanan qiymətlə əldə etmiş olardılar. Aviabileti 30 faiz pulla 100 faiz də əldə etmək mümkün idi. Amma etməyiblər və indi turoperatorların səhvi ucbatından bazarda anlaşılmazlıq yaranıb". Turizmçi yaranan problemdə AZAL-ın rolunun olmadığını bildirir: "AZAL heç bir müştəriyə zəng edib deməyib ki, əlavə ödəniş edin. Zamanında turoperatorlar əldə etdikləri 30 faizdən pul ödəyib biletləri alsaydılar, bu problem heç zaman olmayacaqdı. İndi isə çətin bir durum yaranıb. Turagentlər, kiçik vergi ödəyicisi olan firmalar kütləvi surətdə zərərlə işləyirlər. Bu da iş yerlərinin bağlanmasına və kütləvi işçi ixtisarlarına gətirib çıxaracaq".

Turizmçi Lalə Paşayevanın sözlərinə görə, turoperatorlar və hava yolu şirkətləri arasında müqavilələrdə əvvəlcədən rezerv edilmiş yerlər "qəti" (hard block) və "müvəqqəti" (soft block) olaraq bölünür. Əgər yerləri "qəti rezervasiya" olaraq götürüblərsə, bu halda bütün yerlərin pulunu əvvəldən ödəyirlər və hava yolu şirkəti qiyməti dəyişsə belə, bunun turoperatora (sifarişçiyə) aidiyyəti olmur. Amma müvəqqəti rezervasiyalarda şərtlər fərqlidir: "Görünür, indi qiymətləri artıranlar "qəti rezervasiya" etməyiblər".



Aidə Məlikova
Rəhman Quliyev
Lalə Paşayeva

## "Bu, turizm bazarındakı qaydalara açıq hörmətsizlikdir"

Həmsöhbətimizin sözlərinə görə, turizm agentliklərinin rəsmi olaraq, turoperatordan hava yollarının onlara göndərdiyi məbləği və şərti paylaşmağı tələb etmək haqları var: "Rezervasiya qiymətlərində dəyişiklik yalnız xüsusi fors-major hallarda, məsələn, ciddi inflyasiya olarsa yarana bilər. İndiki halda isə qeyri-rəsmi olaraq süni qiymət artımından söhbət gedir. AZAL dövlətə bağlı şirkətdir. Şirkətin reyslərində ciddi qiymət artımı yoxdur".

Turizmçi bildirir ki, ümumiyyətlə, dünyanın heç bir yerində bir neçə ay əvvəldən alınan turizm məhsulu üçün sonradan qiymət dəyişimi ola bilməz: "Əgər müqavilə şərtində boşluq yoxdursa bu, baş verə bilməz. Amma əgər bu olsa belə, sifarişçi bizdən 30% ilkin ödəniş tələb edib və bununla təyyarə biletlərinin alışını tənzimləyə bilər". L.Paşayeva bildirir ki, müştərilərdən əlavə ödəniş istənilməsi təkcə etik normaların pozulması deyil, həm də turizm bazarında formalaşmış qaydalara açıq hörmətsizlikdir: "Qiymət artımının geriyə tətbiq olunması tamamilə əsassızdır və heç bir iş prinsipinə uyğun gəlmir. Əlavə ödənişin tələb olunması bütün yükü turizm şirkətlərinin üzərinə atır və bizi seçim qarşısında qoyur: ya zərəri özümüz qarşılayaq, ya da müştəri etibarını itirək". Turizmçinin sözlərinə görə, bu vəziyyət xüsusilə yüksək satış həcmi olan turizm şirkətləri üçün kritik maliyyə riskləri yaradır və davam edəcəyi təqdirdə sektorun bir hissəsinin fəaliyyətini dayandırması qaçılmaz olacaq.

### "TƏLƏB HEÇ BİR BEYNƏLXALQ TƏCRÜBƏYƏ ƏSASLANMIR"

Turizmçi Aidə Məlikova deyir ki, turizm təcrübəsi müddətində ilk dəfədir ki, belə bir halla qarşılaşır: "Turoperatorun bizə verdiyi məlumatda hava yolları şirkətləri tərəfindən tələbin irəli sürüldüyü deyilib. Lakin bununla bağlı hər hansı rəsmi sənəd təqdim edilməyib. Sadəcə, e-mail və sistemdə elan şəklində paylaşılıb. Əslində təsdiq gəldikdən sonra rezervasiyalarda qiymət dəyişimi olmamalıdır. Həmçinin hər hansı dəyişiklik olarsa, müştəri tərəfindən bu, cərimə ilə tənzimlənir. Hotel təsdiq verdikdən və ilkin 30% ödənəndən sonra, bəzi hallarda tam ödəniş də edilir. Müştəridən aylar sonra məbləğ tələb etmək heç bir beynəlxalq təcrübəyə əsaslanmır".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
23 MAY ŞƏNBƏ 2026
www.kaspi.az

Ciddi rəqabətin olduğu mövsümdə hər oyun maraqlı alındı, həlledici mahiyyət daşıdı. İndi mövsüm bir sıra komandalar üçün bitirsə, avrokuboklarda yarışacaq kollektivlər artıq hazırlıqlara başlamağı düşünürlər.

# İLKLƏRİN YAŞANDIĞI MÖVSÜM




Futbol üzrə Azərbaycan Premyer Liqasında 2025/26 mövsümü başa çatmaq üzrədir. Son tur yalnız 6-cı pillənin sahibinin müəyyənləşməsi baxımından əhəmiyyətlidir. Çempion da bəllidir, avrokubok iştirakçıları da, elita ilə vidalaşan komanda da. Bu mövsüm ölkə çempionatımız bir neçə yeniliklə yadda qaldı. İlk növbədə say 10-dan 12-yə yüksəldildi. Eyni zamanda, legioner futbolçulara qoyulan limit ləğv olundu. Elə nəticələr baxımından da yeniliklər az deyildi. Bütün bunların fonunda əminliklə demək olar ki, bu, son illərin ən maraqlı çempionatı oldu. Ciddi rəqabətin olduğu mövsümdə hər oyun maraqlı alındı, həlledici mahiyyət daşıdı.

**“QIZIL DUBL”LA DƏYİŞƏN ÇEMPİON**

2025/26 mövsümü Azərbaycanda yeni çempionla əlamətdar oldu. “Sabah” “Qarabağ”ın hegemonluğuna son qoydu. Masazır klubu mövsümboyu davam etdirdiyi üstünlüyü əlində saxlamağı bacardı. “Futuristlər” sona dörd tur qalmış çempionluğu rəsmiləşdirdilər. “Sabah” üçün mövsüm “qızıl dubl”la əlamətdar oldu. Valdas Dambrauskasın rəhbərlik etdiyi kollektiv final oyununda “Zirə”ni üstələyərək Azərbaycan Kubokunu da başı üzərinə qaldırdı.

İndi “Sabah”ı daha ciddi sınaq gözləyir. Komanda ilk dəfə Çempionlar Liqasında (ÇL) çıxış edəcək. Düzdür, “Sabah”ın müəyyən avrokubok təcrübəsi var. Lakin bu, yeni bir səviyyədir və tələbləri daha fərqlidir. “Qarabağ” ÇL-dəki çıxışı ilə azarkeşləri uğura öyrəşdirib. Bu isə “Sabah”a olan tələbləri də artırıb. Komandanın göstərdiyi oyun gözəgəlimlidir və avrokuboklar üçün ümid verir. Lakin sırf ÇL-də “baş çıxarmaq” üçün daha artığına ehtiyac var. Reytinqi nisbətən aşağı olan “Sabah” I təsnifat mərhələsində “səpələnməmişlər” səbətində yer alıb. Komandanın potensial rəqibləri arasında “Kayrat”, “Universtatya Krayova”, “Klaksvik” kimi təcrübəli və güclü kollektivlər var. Lakin heç biri keçilməz deyil. Mübarizəyə qitənin bir nömrəli klub turnirində başlamaq “Sabah” üçün Avropa Liqası, Konfrans Liqası şanslarını da artırır. Böyük ehtimalla komanda ilk dəfə avrokubokların liqa mərhələsində yarışmaq hüququ qazanacaq. Lakin, əlbəttə, əsas tələb ÇL-də uğur qazanmaqdır. Bunun üçün isə yaxşı hazırlıq və yeni, daha üst səviyyəli oyunçular lazımdır.

## “QARABAĞ” ÜÇÜN YENİ ÇAĞIRIŞ

“Qarabağ” üçün də mövsümü uğursuz adlandırmaq olmaz. Komanda ölkədaxili yarışlarda istədiyi nəticələri qazanmasa da, ÇL-dəki çıxışı alqışa layiq oldu. Liqa mərhələsində mübarizə aparan “atlılar” tarixində ilk dəfə pley-offa vəsiqə qazanmağı bacardı. Gücünü əsasən ora yönəldən komandada futbolçuların fiziki və psixoloji yorğunluğu bəzi məqamlarda ağdamlıların çempionata tam köklənməsinə, lazımi nəticələri qazanmasına mane oldu. Bu, “Sabah”ın qələbəsinə kölgə salmamalıdır, lakin mütəxəssislər hesab edirlər ki, çempionluğun əldən verilməsində bu məqamın rolu az deyildi. Yay “Qarabağ” üçün çox hərəkətli keçəcək. Çempionluğu uduzan Ağdam klubu yeni çağırışla üz-üzədir. “Sabah” “süvarilər”ə ciddi rəqabət təklif edir. Komandanın heyətində ciddi dəyişikliklər olacağı gözlənilir. Əksər futbolçuların artıq uğura “doyduğu” və əvvəlki motivasiya ilə çıxış etmədiyi aşkar görünür. Bəzi oyunçuların isə ölkə xaricindən daha yaxşı təkliflərinin olduğu bildirilir. Belə vəziyyətdə heyətdə köklü dəyişikliklərin olacağı gözlənilir. Ağdamlılar artıq transfer fəaliyyətinə başlayıblar. Klub Kipr “Omoniya”sından Jali Muaddibi heyətinə qatıb. Yeni mövsümün startına qədər keçidlərin çox olacağı gözlənilir.

“Qarabağ” ölkəmizi Premyer Liqanın 2-cisi kimi Avropa Liqasında təmsil edəcək. Komandanın avrokuboklarla bağlı formalaşdırdığı inam bu mövsüm də ən azı liqa mərhələsində çıxış edəcəyini gözləməyə əsas verir.

## 32 illik həsrətin sonu

Yeni mövsüm avrokuboklarda yarışacaq daha bir komanda “Turan Tovuz”dur. Qərb təmsilçisi 32 illik həsrətə son qoyub. 1994-cü ildə Azərbaycan klubları arasında ilk dəfə məhz “Turan” UEFA kubokunda mübarizə aparıb. İndi isə onlar Premyer Liqanın üçüncüsü kimi UEFA Konfrans Liqasında yarışmaq hüququ qazanıblar. Klub rəqiblərini Tovuzda qəbul etmək üçün Tovuz şəhər stadionunda təmir işlərinə də artıq start verib.

“Turan Tovuz”un avrokubok təcrübəsi olmasa da, Kurban Berdıyev kimi baş məşqçiyə sahibdir. Bəzən azarkeşlər onun praqmatik oyun üslubunu bəyənmirlər. Lakin təcrübəli mütəxəssis nəticə əldə etməyi bacarır. İndiki məqamda ən əhəmiyyətli olan da budur. Bu baxımdan, Tovuz təmsilçisindən də uğurlu çıxış gözləməyə dəyər. Lakin komandanın ciddi şəkildə güclənməsinə ehtiyac var.

**VERNİDUBLA GERİ QAYIDAN “NEFTÇİ”**

“Neftçi” mövsümə uğursuz başlasa da, vaxtında verilən doğru qərar komandanın çempionatı yaxşı səviyyədə başa vurması ilə nəticələndi. Samir Abbasovun gedişindən sonra baş məşqçi təyin edilən Yuri Vernidubla “ağ-qaralar” geridönüş etməyi bacardılar. Ukraynalı mütəxəssis mövsümü xilas etdi. “Zirə”nin kubokun finalında uduzması nəticəsində Premyer Liqanın dördüncüsü kimi “Neftçi” Konfrans Liqasına vəsiqə qazandı. Burada komandanın işi heç də asan olmayacaq. Lakin indi “ağ-qaralar”ın çox yaxşı baş məşqçisi var. Vaxtilə “Şerif”i çalışdırarkən “Santyaqu Bernabueu”da “Real Madrid”i məğlub edən Vernidubа inam böyükdür. Azarkeşlər mövsümün ortasında gəlməsinə baxmayaraq, heyətdə ciddi dəyişiklik etməyən, əlindəki resurslarla maksimum nəticə əldə etməyi bacaran ukraynalının Konfrans Liqası üçün də “uğur formulu”nun olduğuna inanırlar.



Yuri Vernidub

Kurban Berdıyev